BAXIŞ QƏHRƏMANOV



# Doktor

# NƏRİMANOV

Baxış Qəhrəmanov

# *Doktor*
# NƏRİMANOV

Azərbaycan Dövlət Nəşriyyatı

Bakı-1990

## N.NƏRİMANOVUN HƏYATININ İLK DÖVRÜ VƏ TƏHSİL İLLƏRİ

Görkəmli partiya və dövlət xadimi, V.İ.Leninin sədaqətli şagirdi və silahdaşı SSRİ MİK ilk sədrlərindən biri, yazıçı, fədakar həkim Nəriman Nərimanovun adı xalqın inqilabı mübarizə tarixinə həmişəlik daxil olmuşdur. N.Nərimanovun həyatı keşməkeşli, ictimai-siyasi fəaliyyətinə ədəbi yaradıcılığı çox zəngin olmuşdur.

Son illər N.Nərimanovun irsinin öyrənilməsi və nəşr edilməsi sahəsində böyük işlər görülmüşdür. Lakin bir inqilabçı həkim kimi onun tibbi irsi, xüsusən ictimai xarakteri çox az öyrənilmişdir. Nərimanov zəhmətkeş xalqın ictimai həyat şəraitinə yaxından bələd olduğu üçün bunu özünün ədəbi, siyasi və tibbə dair olan əsərlərində hərtərəfli əks etdirmişdir.

Nəriman Nəcəf oğlu Nərimanov 1870-ci ildə aprel ayının 14-də Tiflis şəhərində anadan olmuşdur. Ona ulu babasının adını qoymuşlar. N.Nərimanovun böyük qardaşı Salman Nərimanov xatirə dəftərində yazırdı ki, ulu babamız Nəriman XVII əsrdə Gürcüstan çarı Birinci İraklinin sarayında “sabitqədəm” eşik ağası olmuşdur. Kərbəlayı Nəcəfin atası el aşığı Nəriman Allahverdi bəy XIX əsrdə Zaqafqaziyada tanınmış musiqi xadimlərindən idi...

Nərimanın atası Kərbəlayı Nəcəf Allahverdi oğlu xırda ticarətçi, anası Həlimə xanım Hacı Məmmədqasım qızı qayğıkeş və mehriban evdar qadın idi. Onların yeganə arzusu hər şey barəsində öz fikri olan müstəqil hərəkat etməyi sevən Nərimana təhsil vermək 1882-ci ildə 12 yaşlı Nərimanı atası Qori seminariyasının nəzdində olan ibtidai məktəbə düzəldir. O, üç ildən sonra məktəbi bitirib seminariyanın hazırlıq şöbəsinə keçir. Nəriman buranı müvəffəqiyyətlə bitirərək əsas şöbəyə seminariyaya qəbul olunur. Seminariyada gürcü, rus, azərbaycanlı, erməni və başqa millətlərin uşaqları təhsil alırdılar. Təhsilə inamla can atan Nəriman keçilən dərsləri müvəffəqiyyətlə mənimsəməklə yanaşı, klassik Azərbaycan ədəbiyyatı nümunələri – Nizami, Füzuli, Zakir, Vaqif kimi sənətkarların əsərləri ilə yaxından tanış olur. Rus dilini kamil öyrənir. Puşkinin, Tolstoyun, Qoqolun ve qeyri qüdrətli rus ədiblərinin əsərlərini oxuyur. Onun maarifçilik dünyagörüşü bu dövrdə formalaşır.

1890-cı ildə Nərimanov seminariyanı bitirdikdən sonra xalq məktəbləri müəllimi adını alır. O, Tiflis quberniyasının Borçalı qəzasında azərbaycanlılar yaşayan Qızılhacılı kəndində müəllimlik edir. Nərimanov burada nadanlıqla, fanatizimlə, cahilliklə, gözləri

qorxmuş yoxsul kəndlilərin etimadsızlığı ilə üz-üzə gəlir, seminariyada başladığı ”Nadanlıq” dramını burada, Qızılhacılıda tamamlayır.

Qızılhacılıda gördüklərinin, çəkdiyi əzabların hamısı gənc Nərimanın dünyagörüşünün formalaşmasına güclü təsir göstərir. Onun öz ömrünü tarixi şərait üzündən geridə qalan hüquqsuz Azərbaycan xalqına xidmət işinə həsr etmək əzmini möhkəmləndirir.

1891-ci ildə Bakıya köçən N.Nərimanov “Qara qızıl səltənətində” geniş mədəni-maarif və ədəbi fəaliyyətə başlayır. Çox çəkmədən müəllim kollektivi arasında böyük hörmət qazanır, nümunəvi işlərinə görə o, Bürünc medal və üçüncü dərəcəli Stanislav ordeni ilə təltif edilir. N.Nərimanov rus-Azərbaycan məktəblərində tədrisin keyfiyyətini yüksəltmək məqsədilə “Türk (Azərbaycan-B.Q.) dilinin müxtəsər sərf-nəhvi” dərsliyini tərtib edib çap etdirir.

“N.Nərimanovun pedaqoji fəaliyyəti sadəcə müəllimliklə məhdudlaşmırdı.O, həm də ictimai xadim kimi Azərbaycanda maarif və mədəniyyətin yayılmasına ciddi təsir göstərirdi”.[1]

Öz xalqının maarif və mədəniyyətini yüksəltmək, başqa xalqların mədəniyyəti ilə tanış etmək, ünsiyyət yaratmaq məqsədilə Nərimanov Bakıda ilk qiraətxana yaratmaq məqsədinə düşür. O, qiraətxananı açmaq üçün rəsmi hökümət orqanlarından çətinliklə icazə alır “Kaspi” qəzeti bununla əlaqədar belə yazırdı: “Şəhərimiz bir gözəl müəssisə ilə zənginləşir. Progimnaziya müəllimi cənab Nərimanov xalq qiraətxanası açmaq üçün icazə almışdır. Bu qiraətxana yerli dildə, habelə gürcü, fars, türk və rus dillərində qəzet və jurnal alacaqdır...”[2]

Nəhayət, 1894-cü ilin aprel ayında qiraətxana işləməyə başladı. Dörd nəfər-Nərimanov, Cəfərzadə, Qənizadə, Mahmudbəyov yorulmaq bilmədən kitab, jurnal, qəzet toplayırdılar. Azı yeddi dildə kitablar əldən-ələ keçirdi. Elə məqsəd də bu idi. Lakin bu məqsəd din xadimlərini özündən çıxarır, qiraətxananı qorxulu küfr və itaətsizlik ocağı adlandırırdılar. Artıq Nərimanov xalqın gələcək taleyi uğrunda xoş arzularından birini həyata keçirmişdi.

N.Nərimanov öz ictimai və ədəbi fəaliyyətində zəhmətkeş xalqın azadlığı və haqq işi uğrunda mübarizəsini inadla ardıcıl olaraq davam etdirirdi. O, “Nadanlıq” (1894), “Şamdan bəy” (1895), “Nadir şah” (1889), “Bahadır və Sona” (1896-1908) kimi ədəbi

[1] T.Əhmədov. N.N.Nərimanov. Yazıçı, Bakı, 1982, s.31
[2] “Kaspi” qəzeti, 24 fevral, 1894

əsərlərində dövrün ictimai problemlərinə toxunmuş, sosial və mədəni məsələlərə dair povestler və publisistik məqalələr yazmışdır. O özünün “Pir” povestindəki məşhur Molla Cəfərqulunun prototipləri ilə həyatda daim rastlaşırdı. Vaxtilə kəndlərdə meymun gəzdirib hoqqabazlıq edən molla sağalmaq üçün pirə gələn zəvvarlara müraciətlə deyir:

“Ya əyyuhənnas! Eşidirəm deyirlər şəhərdə və bir neçə kəndlərdə xalq vəba naxoşluğundan qorxub dağa-daşa qaçmaq istəyir. Məbadə belə şeylər edəsiniz. Vəba allahın əzabıdır və allah-təala öz əzabını əməlisaleh olmayanlar üçün həmişə göndərir. Siz ki, şükür allaha, əməlisaleh adamsınız: namazınızı qılırsınız, orucunuzu tutursunuz və həmişə pirə gələnlərdənsiniz, nə üçün qorxursunuz?. Keçən il vəba naxoşluğuna mübtəla olmuş bir adamı kənddən bura gətirmişdilər, dərhal bir kasa suyun bu pirin torpağından salıb verdim içdi, həmin saat şəfa tapdı. İndi nə üçün qorxursunuz? Allah azar verib, dərmanını da yaradıbdır. Fəqət əməlisaleh adamlar üçün...”

Pirin torpağı “əməlisaleh” adamlar üçündür. Pul, qiymetli şeylər, qoyun nəzir gətirənlər üçün. Əvəzində bütün xəstəliklərin- vəbanın, taunun, vərəmin dərmanı sayilan dua verilir, duanı ənam alan molla yazır.

Avam xəstələrin kor-koranə pirə inamı, acgöz ara mollalarının fırıldaqları, müsəlman həkimlərin demək olar, yoxluğu uzun əsrlərdən bəri davam edən köhnə bəladır.

Nərimanov belə vəziyyətlə həmişə üzləşmişdir. Hələ seminariyadan sonrakı birinci il Qızılhacılı kəndində müəllim işlərkən bu ictimai bəlanı ifşa etməyə cəhd göstərmişdi. Amma bəla necə vardısa, elə qalmışdı. N.Nərimanovun bioqrafiyasinda bu barədə belə yazılır: “Tibb fakültəsini seçməsi ondakı daxili dəyişikliklərin əlaməti idi; iri kapitalizm mərkəzi olan Bakıda, adamların əmlak vəziyyətindəki dəhşətli bərabərsizliyin, birinin başqaları hesabına varlanmasının və bu kimi sosial hadisələrin və proseslərin o zamankı Rusiyanın hər yerində olduğundan daha çox üzə çıxdığı bir şəhərdə apardığı ictimai iş şəraitində onun daxili aləmində bu cür dəyişikliklər baş verə bilməzdi. Lənətə gəlmiş suallar cavab tələb edirdi, cavab isə yox idi, odur ki, Nərimanov təbiiyyat elmlərini öyrənməyə başlayır...”

Nərimanovun əli ilə yazılmış çox əhəmiyyətli olan sözlər: “Ağır həyat şəraiti taleyin dəfələrlə vurduğu zərbələr mənə qarşıma qoyduğum məqsədə çatmağa mane olurdu. İndi qardaşım qızını ərə verib, o biri uşaqları məktəblərə düzəldəndən sonra elə güman edirəm ki, ailə qarşında borcumu yerinə yetirmişəm və çoxdankı arzuma çatıb öz təhsilimi davam etdirə bilərəm”.

Bakı fəhlələrinin vəziyyəti bu dövrdə olduqca acınacaqlı idi. 14-16 saatlıq ağır iş günü, neft buruqları arasında yerləşən yaşayış kazarmalarında heç bir şəraitin olmaması, mazutlu gölməçələrdən qalxan zəhərli buxarlar onların sağlamlığına ciddi təsir göstərirdi. Böyük proletar yazıçısı Qorkinin bu yerləri "mənfur cəhənnəmin dahiyanə çəkilmiş bir lövhəsi" adlandırması təsadüfi deyildi. Bakının Sabunçu neft mədənlərində işləyən fəhlələrin çoxu iş vaxtı aldıqları zədələrdən şikəst olur, işdən qovulurdular. Belə bir şəraitdə əhali arasında xroniki xəstəliklər yayılır, kəskin yoluxucu xəstəlik epidemiyaları minlərlə insan həyatını təhlükə qarşısında qoyurdu. Bütün bunlar N.Nərimanovu mütəəssirləndirir, insanlara sağlamlıq bəxş etmək üçün onu həkim olmağa sövq edirdi.

Nərimanın qərarı dost-tanışları üçün gözlənilməz idi. O, cəmiyyətdə nüfuz qazanmış xeyirxahlıq yayan adam sayılırdı. Uşaqlar onun dərslikləri əsasında oxuyurdular. Böyüklər kitablarını mütaliə edir, pyeslərinə baxırdılar, mühazirələrini dinləyir, işləri çətinə düşəndə ondan kömək istəyirdilər.

Hətta müdrik Həlimə xanım (son illər o oğlu ilə birlikdə Bakıda yaşayırdı) bilmirdi nə eləsin. Ana düşünürdü: "Hörmət-izzət sahibi, yaşa dolmuş, novruz bayramında otuz iki yaşı tamam olacaq müəllim Nəriman təzədən oxumaq istəyir, uzaq Odessa şəhərinə gedir. Görəsən axırı xeyirmi olacaq?"[1]

1902-ci ilin avqust ayında N.Nərimanov artıq Novorossiysk universitetinin tələbəsi idi. Odessada yaşadığı ilk mənzil Xerson küçəsində kirayə üçün istifadə edilən daş binanın ikinci mərtəbəsində yerləşirdi. 1911-ci ildə məşhur alim İ.İ.Meçnikov Həştərxana gələrkən N.Nərimanovla söhbəti zamanı həmin evdə, həmin mənzildə universitetin professoru olduğu zaman yaşadığını bildirir. Bu xəbər hər iki müsahib üçün maraqlı olur.

Tələbə N.Nərimanovu bir məsələ düşündürürdü: o, təhsil haqqı verməli, özünü və Bakıda yaşayan ailəsini dolandırmalı idi. Milyonçu H.Z.Tağıyev N.Nərinanovla Bakıda görüşündə demişdi: "Oğlum, eşitmişem Odessaya gedirsen, get oxu millətə xeyrin dəyər. Kontora tapşırmışam, hər ay sənə pul göndərəcəklər, sağlıq olsun... Sonra borcunu verərsən".[2] Kontor N.Nərimanova ayda 50 manat pul göndərirdi. N.Nərimanovun ailə vəziyyəti ağır idi. O özündən başqa anasını və bacısının beş nəfərlik ailəsini saxlayırdı. H.Z.Tağıyevdən aldığı təqaüd onun dolanmasını təmin etmirdi. O, Bakı şəhər dövlət Dumasına öz vəziyyəti haqqında xahişnamə göndərərək təqaüd təyin edilməsini xahiş

[1] Bax. İ.Dubinski-Muxadze.Nərimanov. Bakı, Yazıçı, 1979. S.34
[2] T.Əhmədov. N.Nərimanov. S.67

etmişdi. Dumada N.Nərimanovun ictimai və maarifçilik fəaliyyəti nəzərə alınaraq, ona ayda 25 manat təqaüd verilməsi barədə qərar qəbul olunmuşdu.

İlk günlərdən N.Nərimanvun ətrafına qafqazlı tələbələrdən başqa digər millətlərdən olan tələbələr də toplaşırdı. Onu çox vaxt gələcək təbabət alimlərinin, təbiiyyatşünasların– Y.N.Şepkinin, N.K.Lısenkovun, B.V.Veriqonun yanında görmək olardı. N.Nərimanovun tələbə dostlarından Vyaçeslov Pavloviç Snejkov belə yazırdı: "Fakultəmizdə biz Nərimanovdan yaşca kiçik idik. Onunla hesablaşır, təklifləri ilə razılaşırdıq... Mövcud vəziyyəti çox gözəl başa düşür, liman yükvuranları arasında, şəhər əhalisi arasında gizli iş aparır, amma polisin əlinə bəhanə vermirdi". [1]

O zaman qafqazlı, eləcə də azərbaycanlı gənclər ali təhsili əsasən Kiyev, Odessa və Xarkov universitetlərində alırdılar. Sonralar Odessadakı qafqazlı tələbələr birliyi N.Nərimanovun rəhbərliyi altında böyük qüvvəyə çevrilir. Onlar ictimai-siyasi hadisələrin fəal iştirakçısı olurlar. O zaman tələbələr arasında qarşılıqlı həmrəylik və yaxın yoldaşlıq münasibətlərinə ciddi nəzarət qoyulurdu. Bu vəziyyət N.Nərimanovun inqilabi hərəkata qoşulmağına mane ola bilməmişdi.

N.Nərimanovun tələbəlik illəri birinci rus inqilabının ən burulğanlı, fırtınalı dövrünə təsadüf edir. Tibb fakultəsində təhsil almağa Kuban, Don, Qafqaz, Krım, Ukrayna və başqa yerdən gələnlər arasında N.Nərimanov həm yaşca böyük, həm də təcrübəli idi. Tez bir zamanda o, hamının etimadını qazanır, kursun başçısı seçilir, tələbələrin sevimli dostu, hörmətli məsləhətçisi və təşkilatçısı olur. Tələbə hərəkatında fəal iştirak edir.

N.Nərimanov inqilabi fəaliyyətilə yanaşı qabaqcıl və nümunəvi tələbə idi. O, keçilən fənləri dəqiq planlaşdırır, anatomiyanı və fiziologiyanı təbabətin "açarı" sayır, onları xüsusi diqqətlə öyrənirdi. N.Nərimanov yuxarı kurslarda latın terminləri ilə yazdığı "Xəstəlik tarixləri" ndə anatomiya və fiziologiya elmindən geniş istifadə etmişdir.

N.Nərimanov Novorossiysk universitetində yalnız təbabət elmini deyil, dünyada şöhrət qazanmış İ.M.Seçenov, İ.İ.Meçnikov, N.A.Umov, A.O.Kovalevski kimi qabaqcıl dünyagörüşlü rus alimlərinin ideyalarını öyrənir, darvinistlərə qoşulur. Çünki onlar universitetdə Yaraşenko, Sabin, Malinin kimi mürtəce fikirli alimlərə qarşı mübarizə aparırdılar.

N.Nərimanovun keçmiş tələbə yoldaşlarından professor İ.A.Kobozev xatirələrinin birində N.Nərimanovun tələbəlik illərindəki inqilabi fəaliyyətindən bəhs edərək yazırdı:

---

[1] İ.Dubinski-Muxadze. N.Nərimanov. S.41

“Nərimanov bizim kursun başçısı idi. Ona hamı yaxınlaşır və sözünü eşidir, ondan əl çəkmirdilər”.[1]

Əlbəttə, N.Nərimanovun inqilabi fəaliyyəti çar xəfiyyələrinin nəzərindən yayınmamışdı. Sənədlərin birində deyilirdi ki, Nərimanov 1 noyabr 1903-cü ildə, 10 avqust 1906-cı ildə tələbə toqquşmalarında iştirak etmişdir.[2]

Peterburqda baş vermiş 9 Yanvar hadisələri hər yerdə xalqın qəzəbinə və inqilabi hərəkatın genişlənməsinə səbəb oldu. Peterburq fəhlələri ilə həmrəy olan Novorossiysk universitetinin tələbələri 1905-ci ilin yanvar ayında tətil elan etdilər. Bu tətilin təşkilatçılarından biri də N.Nərimanov idi. Yanvarın 10-da, bazar ertəsi N.Nərimanov təbib tələbələrin mitinqində sədrlik etmişdi.[3]

Sinfi mübarizə döyüşləri başlanır. Çarın qara qüvvələri mübarizəni qanla yatırmaq istəyir, odlu silaha əl atır. Mərdliklə döyüşən tələbələr özünü müdafiəyə keçirlər. Özünümüdafiə drujinaları olmasaydı qaragüruhçular bütün Odessanı dağıdacaqdılar. Sanitar tələbələr yaralıları, şikəstləri tibb fakultəsinin bu günlər döyüş meydanından səyyar xəstəxananı xatırladan cərahiyyə klinikasına gətirirlər. Tələbələrdən Lısenkov və Nərimanov gecə-gündüz gözlərini yummadan cərahiyyə stolundan uzaqlaşmırlar.[4] İnqilabi çıxışlardan qorxan çar höküməti 1905-ci ilin payızında universiteti müvəqqəti olaraq bağlayır. N.Nərimanov Bakıya qayıtmalı olur. Kazan universitetinin tibb fakultəsinə dəyişilmək fikrinə düşürsə də lakin onun bu fikri baş tutmur.

N.Nərimanov universitetdə oxuduğu illərdə Bakı fəhlə və ziyalıları ilə sıx əlaqə saxlayırdı. 1905–ci ildə N.Nərimanov RSDFP-nin “Hümmət” təşkilatına daxil olur və bu təşkilatın fəaliyyətinin daha da artmasına və möhkəmlənməsinə yaxından kömək edir.

1906-cı ilin axırına qədər Nərimanov Bakıda qalır, “İrşad” və “Həyat” qəzetləri redaksiyasında işləyir. “Bu yaşayış yaşayışmı?” başlığı altında yazdığı məqalədə N.Nərimanov Odessada həbs edilmiş, azadlıq yolunda çalışan 23 nəfərin (bunlardan üçü həkim idi) qanunsuz cəzalandırılmalarına qarşı etirazını bildirir və onların tezliklə azad edilməsini tələb edir.[5] İlin sonunda Nərimanov yenidən Odessaya qayıtmalı olur.

N.Nərimanov tədris prosesində mövcud tibbi ədəbiyyatı ciddi mütaliyə edir. O, kütlə qarşısında mühazirələr oxuyur, söhbətlər aparır, qəzetlərə məqalələr yazırdı. 1906-cı

[1] M.Qazıyev. N.Nərimanov. Bakı, Azərnəşr, 1970, s. 26.
[2] “Zarya vostoka” qəzeti, 29 mart 1925.
[3] Bax: İ.Dubinski – Muxadze. Nərimanov. S. 47.
[4] Yenə orada, s.49.
[5] “Həyat” qəzeti, 21 iyun 1906.

ildə Nərimanov "Tibb və islam" adlı əsərini nəşr etdirir, Gəncə, Şəki, Şuşa və bir sıra başqa şəhərlərdə sanitariya maarifi ilə məşğul olub, əhaliyə tibbi yardım göstərir.

1908-ci ildə N.Nərimanov universitetin tibb fakultəsini müvəffəqiyyətlə bitirərək həkim adını alır və bir ay müddətində universitetin klinikasında işlədikdən sonra doğma Bakıya qayıdır. Gənc həkimi vətənə yola salan dostları hörmət əlaməti olaraq ona bahalı və zəngin cərrahlıq alətlərindən ibarət komplekt bağışlayırlar.[1]

Şəhərin ziyalıları onu təntənə ilə qarşılayır və şərəfinə böyük müsamirə düzəldirlər.

N.Nərimanov Bakıya qayıdarkən Odessa quberniyasının həkim müfəttişliyindən aldığı şəhadətnamədə deyilirdi:

"Həmin şəhadətnamə verilir Nəriman Nərimanova ondan ötəri ki, o, 1908-ci ilin payız yarımilliyində Novorossiysk İmperator Universitetində tibb yoxlama komissiyası tərəfindən həkimlik dərəcəsinə layiq görülmüşdür.

Yoxlama komissiyasının 20 oktyabr 1908-ci il tarixli iclasında həkimlik dərəcəsi təsdiq olunmuşdur.

Quberniyanın həkim müfəttişi – Antayev".

Azərbaycan tələbə hərəkatının tədqiqatçılarından olan filologiya elmləri namizədi İsa Həbibovun "Gənclik" jurnalının 1989-cu il iyun nömrəsində çap olunmuş "Hipokrat andı" adlı məqaləsi N.Nərimanovun tibb fakultəsində oxuduğu illərin maraqlı və gərəkli anlarını yada salır. "N.Nərimanov Novorossiysk imperator universitetinin tibb fakultəsini hansı qiymətlərlə bitirmişdir? Odessa vilayətinin Tarix arxivində saxlanan 415 nömrəli şəxsi işdəki sənədlər bu sualı aydınlaşdırmağa əsas verir. N.Nərimanova 1908-ci il oktyabr ayında universiteti bitirməsi haqqında verilmiş şəhadətnamədə onun ayrı-ayrı fənlərdən aldığı qiymətlər göstərilmişdir. Məlum olur ki, o, universitetdə oxuduğu müddətdə tədris planına uyğun olaraq 38 fənn üzrə mühazirə və təcrübi məşğələlərdə iştirak etmişdir. Maraqlıdır ki, həmin fənlərdən 33-ü bilavasitə həkimlik ixtisasına, onun müxtəlif sahələrinə aiddir. Bir qədər, ümumi xarakter daşıyan anatomiya, fizika, histologiya, üzvi və qeyri üzvi kimya fənləri də əslində tibb elmi ilə yaxından əlaqəlidir.

N.Nərimanov 1908-ci ilin ikinci yarısında həkim adı almaq ərəfəsində 13 fevral imtahan, 17 fəndən zaçot vermişdir. İmtahanların çoxu nisbətən ümumi elmləri, zaçotlar isə ixtisas fənlərini əhatə etmişdir. Digər fakultələrdən fərqli olaraq tibb ixtisasında buraxılmış mərasimi həkimlik adının qəbul edilməsi ilə yekunlaşdırılırdı. Universiteti

[1] Bax. T.Əhmədov. N.Nərimanov. s.144

bitirən bütün məzunlarla birlikdə N.Nərimanovun da 21 oktyabr 1908-ci il tarixdə təntənəli şəkildə qəbul etdiyi və bu vaxtadək tədqiqatlarda öz əksini tapmayan akdının mətni belədir: "Mənə həkimlik ixtisası hüququnun verilməsini dərin ehtiramla qəbul edərək, üzərimə düşən vəzifənin məsuliyyətini nəzərə alıb, söz verirəm ki, ömrüm boyu indi sıralarına daxil olduğum peşənin şərəfinə heç nə ilə ləkə gətirməyəcəm. Vəd edirəm ki, yardımıma ümid bəsləyən əziyyət çəkənlərə həmişə imkanım çatan qədər yaxından kömək edəcəyəm. Mənə etibar olunan ailə sirlərini şərəflə qoruyacaq, göstərilən etimadı zərərli işlərə sərf etməyəcəm. Tibb elmini öyrənməyi davam etdirəcək, özümün bütün səyimə onun çiçəklənməsinə çalışacaq, aşkar edəcəyim yenilikləri elmi şuraya çatdıracağam. Gizli (qadağan olunmuş) dərmanların hazırlanması və satışı ilə məşğul olmayacağam. Həkim yoldaşlarıma qarşı xeyirxah olacaq, onların şəxsiyyətini təhqir etməyəcək, əgər bu, xəstənin xeyirinə olarsa, tərəfgirlik etmədən bir başa həqiqəti deyəcəyəm. Zəruri hallarda daha təcrübəli, səriştəli həkimlərdən məsləhət almağa söz verirəm. Məndən məsləhət almaq lazım gəldikdə isə müraciət edənlərin səylərinə və xidmətlərində durmağa vicdanla xeyirxahlıq göstərəcəyəm" (Odessa Vilayət Tarix Arxivi. Nəriman Kərbəlayı Nəcəf oğlu Nərimanovun şəxsi işi. Fond 42, siyahı 5, qovluq 415, vərəq 4).

Novorossiysk universitetində mövcud olan qaydaya görə "fakultə andı" adlandırılan həkimlik andının mətni məzunların diplomlarına əlavə edilmişdir. N.Nərimanov nəinki həkim, həm də yazıçı, vətəndaş, ictimai xadim kimi həmin anddakı nəciblik və müqəddəsliyi həmişə uca tutmuşdur.

Bəzi müəlliflərin fikrincə N.Nərimanov Bakıda bir müddət şəhər xəstəxanasında həkim işləyir. Bəziləri də onun Bakıda iş tapa bilməyərək Tiflisə getməsini söyləyir. Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. Əgər Nərimanov Bakıda həkim işləmək fikrində olsaydı, şübhəsiz, həkim çatışmamazlığı şəraitində və böyük nüfuzu sayəsində bir işə düzələ bilərdi. N.Nərimanovun tədqiqatçısı T.Əhmədov yazır: "1908-ci ilin axırlarında N.Nərimanov Odessadan qayıtdığı zaman partiyanın xüsusi tapşırığı ilə Tiflisə göndərilir".[1] Ancaq onun pulsuz dövlət müalicəxanası açmaq üçün şəhər Dumasına müraciət etməsi və müsbət cavab almaması məlumdur.

N.Nərimanov Tiflisdə Vorontsov küçəsindəki "Azərbaycan" mehmanxanasında bir otaq tutur və daxili xəstəliklər üzrə həkim vəzifəsi alaraq, xəstələri burada qəbul etməyə

[1] T.Əhmədov. N.Nərimanov. s.144

başlayır. Burada o, həkimlik peşəsindən istifadə edərək inqilabçılarla əlaqəni genişləndirir. Ancaq polis hələ ilk gündən Nərimanovu nəzarət altında saxlayırdı. Onun Tiflisdə həkimlik dövrü çox çəkmir. Fevral ayının axırlarında polislər N.Nərimanovun mənzilində axtarış aparır, tapılan sənədlər əsasında onu mart ayının 1-də həbs edib METEX qalasına salırlar.

N.Nərimanov həbs olunması Zaqafqaziya demokratik ictimaiyyətinin dərin qəzəbinə səbəb olur. Hökümət orqanlarına yüzlərlə etiraz məktubları göndərilməsinə baxmayaraq çar üsul – idarəsi Nərimanovu azad etmir. O yarım il həbsdə saxlandıqdan sonra iki il müddətinə Həştərxana sürgün edilir.



N.Nərimanovun anası Həlimə xanım.



N.Nərimanov Odessa universitetində tələbə yoldaşları ilə (birlikdə) ikinci cərgədə sağdan ikinci.



№ 37414

# Дипломъ.

Предъявитель сего **Наримановъ** Нариманъ Кербалай Наджаръ Оглы, вѣроисповѣданія магометанскаго, по *удовлетворительномъ* выдержаніи полукурсоваго испытанія и по зачетѣ опредѣленнаго уставомъ числа полугодій на медицинскомъ факультетѣ ИМПЕРАТОРСКАГО Новороссійскаго университета, подвергался испытанію въ **Медицинской** испытательной коммиссіи при томъ-же университетѣ весною и осенью 1908 года, при чемъ оказалъ слѣдующіе успѣхи: по **описательной анатоміи** — *удовлетворительные*; по **гистологіи** — *удовлетворительные*; по **патологической анатоміи** и **патологической гистологіи** — *удовлетворительные*; по **оперативной хирургіи** и **топографической анатоміи** — *удовлетворительные*; по **физіологіи** — *удовлетворительные*; по **общей патологіи** — *удовлетворительные*; по **медицинской химіи** — *удовлетворительные*; по **фармакологіи** съ **рецептурой** и **ученіемъ** о **минеральныхъ водахъ** — *удовлетворительные*; по **фармаціи** съ **фармакогнозіей** — *удовлетворительные*; по **частной патологіи** и **терапіи** — *удовлетворительные*; по **ученію** о **нервныхъ** и **душевныхъ болѣзняхъ** — *удовлетворительные*; по **ученію** о **накожныхъ** и **сифилитическихъ болѣзняхъ** — *удовлетворительные*; по **ученію** о **дѣтскихъ болѣзняхъ** — *удовлетворительные*; по **терапевтической клиникѣ** — *удовлетворительные*; по **дѣтской клиникѣ** — *удовлетворительные*; по **хирургической патологіи** съ **десмургіей** и **ученіемъ** о **вывихахъ** и **переломахъ** — *удовлетворительные*; по **офталмологіи** — *удовлетворительные*; по **акушерству** съ **ученіемъ** о **женскихъ болѣзняхъ** — *удовлетворительные*; по **хирургической клиникѣ** — *удовлетворительные*; по **офталмологической клиникѣ** — *удовлетворительные*; по **гигіенѣ** съ **медицинской полиціей** — *удовлетворительные*; по **судебной медицинѣ** съ **токсикологіей** — *удовлетворительные*; по **ученію** о **эпизоотическихъ болѣзняхъ** и **ветеринарной полиціи** — *удовлетворительные*.

Посему и на основаніи ВЫСОЧАЙШЕ утвержденнаго мнѣнія Государственнаго Совѣта 5 ноября 1885 года, г. **Наримановъ** опредѣленіемъ Медицинской Испытательной Коммиссіи при ИМПЕРАТОРСКОМЪ Новороссійскомъ университетѣ 20 октября 1908 г. удостоенъ степени **лѣкаря** со всѣми правами и преимуществами, поименованными какъ въ означенномъ ВЫСОЧАЙШЕ утвержденномъ мнѣніи Государственнаго Совѣта, такъ и въ ст. 92 Устава Университетовъ 1884 года.

Въ удостовѣреніе сего и данъ сей дипломъ г. **Нариманову** за надлежащею подписью и съ приложеніемъ печати Управленія Одесскаго Учебнаго Округа.

Г. Одесса, ______ дня 1908 года.

*Управляющій Одесскимъ Учебнымъ Округомъ, Окружный Инспекторъ, Дѣйствительный Статскій Совѣтникъ и Кавалеръ*

*Предсѣдатель Медицинской Испытательной Коммиссіи, Дѣйствительный Статскій Совѣтникъ и Кавалеръ*

*Правитель Канцеляріи Попечителя Одесскаго Учебнаго Округа, Коллежскій Совѣтникъ и Кавалеръ*

N.Nərimanovun həkimlik diplomu.


История родов

Н. Нәримановун јаздығы хәстәлик тарихи.

N.Nərimanovun yazdığı xəstəlik tarixi.

## N.NƏRİMANOVUN TİBBİ FƏALİYYƏTİNİN HƏŞTƏRXAN DÖVRÜ (1909-1913)

İnqilabi fəaliyyətinə görə yarım il Tiflisin yaxınlığındakı Metex qalasında həbsdə qaldıqdan sonra N.Nərimanov 1909-cu il avqust ayının 21-də Həştərxana sürgün edilir. 1909-cu il sentyabr ayının 30-da himayəsində olan qardaşı və bacısı uşaqları ilə Tiflisdən polis nəzarəti altında Həştərxana gəlir. Bir neçə gündən sonra şəhərin yoxsullar yaşayan məhəlləsində Staro Kuzeçnaya küçəsində fotoqraf Klimaşevskinin taxta evindəki otaqlara köçür. Şəhərin bu hissəsi dolambac döngələrdən, dalanlardan ibarət idi. Burada əsasən tatarlar, özbəklər, kalmıklar, qırğızlar və başqa millətdən olanlar yaşayırdılar. Nərimanovun məhz burada nəhəng ümumi yataqxanaya oxşayan yerdə məskən salmasına kifayət qədər əsas var idi. N.Nərimanov bu adamların həkimi, dostu və məsləhətçisinə

çevrilir. Bir tərəfdən, xalq kütləsinin içərisində, digər tərəfdən, polisin nəzarətindən kənarda olan bu ev N.Nərimanovu tamamilə təmin edirdi.

Həştərxan ziyalıları N.Nərimanovu çox məhəbbət və ehtiramla qarşıladılar. Onun gəlişi münasibətilə qəzetlər məqalələr dərc edir, maarifçilik, ictimai və həkimlik fəaliyyətinə yüksək qiymət verirdilər. Bu məqalələrdə N.Nərimanovu "millətin gövhəri", "qiymətli daş-qaşı" adlandırırdılar.

N.Nərimanovun həkimlik fəaliyyətinə dair "Bürhani-tərəqqi" qəzetində belə yazılmışdı: "...doktor hara gedirsə-getsin, istər Sibirə, istər Afrikaya, yaxud Amerikaya, hər yerdə o qiymətlidir...Nərimanbəy kimi həkimlər bəşəriyyətə xidmət edirlər".[1]

N.Nərimanovun Həştərxanda sürgündə olduğu illər, onun həkimlik fəaliyyətinin ən səmərəli dövrü hesab olunur. Yoxsullara yalnız tibbi yardım göstərmək onun təbiətinə, kifayət dərəcədə mətinləşmiş inqilabının əqidəsinə xas olan cəhət deyildi. Əslində bu, hər hansı həkimin borcudur. N.Nərimanov həbs olunmazdan, sürgünə göndərilməzdən əvvəl başladığı işi hökmən davam etdirməli idi. Cəmiyyətə təsir etmək, onu düşünməyə, sonra isə fəaliyyətə sövq etmək üçün üsullar axtarıb tapmalı idi. N.Nərimanovun tibb fəaliyyətinin Həştərxan dövrü üç istiqamətdə inkişaf etmişdir: əhaliyə praktiki tibbi yardım göstərmək, sanitariya maarifini kütlələr arasında yaymaq, səhiyyənin təşkili məsələlərini inkişaf etdirmək.

Sürgündə olması ona dövlət tibb müəssisələrində işləmək imkanı vermirdi, ancaq həkimlik istedadı sayəsində tez bir zamanda əhali arasında məşhurlaşdı.

Xəstələr axın-axın şəhərin hər tərəfindən "Nərimanov xəstəxanasına" tərəf istiqamət alırdılar. Doktor Nərimanov yaşadığı mənzildə kiçik müalicəxana açmışdı. Gündə 2 dəfə xəstə qəbul edirdi. Qəbul saatlarında o, müxtəlif adamlarla görüşür, inqilabi fəaliyyətini davam etdirməyə imkan tapırdı. "N.Nərimanovun müalicəxanasına gələnlərin sayı gündən-günə artırdı, onun kiçik qəbul otağı həmişə şəhərin və qəzanın yoxsulları ilə dolu olardı. O, kasıblara pulsuz yardım göstərməklə bərabər , çox halda onlara dərman pulu da verərdi".[2]

N.Nərimanov həkimlik fəaliyyəti ilə yanaşı, mətbuat orqanlarında, elmi-kütləvi cəmiyyətlərdə çalışır, ictimaiyyətin böyük etimadını qazanır. "Prikaspiski kray" qəzetinin müsəlman şöbəsinə başçılıq edir. "Bürhani-tərəqqi" qəzetində isə tibbə dair məqalələrlə çıxış edir, tibbi bilikləri yaymağa çalışırdı.

---

[1] "Burhani-tərəqqi"qəzeti, 16 oktyabr 1909
[2] "Bakinski raboçi" qəzeti, 22 mart 1925.

N.Nərimanov Həştərxanda sürgündə olduğu illərdə şəhərin səhiyyə vəziyyəti çox acınacaqlı idi: bir tərəfdən vərəm xəstəliyi şəhəri başına almışdı, digər tərəfdən tez-tez vəba, taun epidemiyaları əhali arasında böyük tələfata səbəb olurdu. Traxoma, yatalaq, dizentiriya və başqa xəstəliklər də əhali arasında xroniki hal almışdır. Belə ağır vəziyyət N.Nərimanova təsir etməyə bilməzdi. Həmin illərdə Həştərxan epidemiyaya qarşı mərkəzə çevrilir. O, gəlişinin ilk günlərindən mütərəqqi tibb xadimləri ilə əlaqəyə girərək əhali arasında geniş sanitariya maarifi işi aparırdı.

Şəhərdə və Həştərxan quberniyasında geniş yayılmış vərəm xəstəliyi ilə əsaslı mübarizə aparılması məqsədi ilə N.Nərimanov yerli tərəqqipərvər tibbi qüvvələrlə birlikdə "Vərəm əleyhinə mübarizə cəmiyyəti" yaradılmasına səy göstərmiş və 1911-ci il aprel ayının əvvəllərində bu cəmiyyət təsis olunmuşdu.

N.Nərimanov yeni təsis edilmiş cəmiyyətin məqsədini, onun görəcəyi işlər haqqında məlumatı və öz təkliflərini "Prikaspiyski kray" qəzetində əsaslı izah edirdi. Bu məqalədə o, iqlimin, ictimai həyatın, mədəni səviyənin, ünsiyyətin və s. vərəm xəstəliyinin baş verməsinə və yayılmasına olan təsirindən bəhs edir, mübarizə tədbirlərini göstərirdi. Həştərxanda həkimlərin 2-ci quberniya qurultayının çağırılması sanitariya vəba epidemiyası, yatalaq, çiçək və s. yoluxucu xəstəliklər kəskin surətdə yayılırdı".[1] Bu şəraitdə quberniya həkimləri epidemiya əleyhinə ciddi tədbirlər görməli idilər. Qurultayın çağırılması tədbirlərində N.Nərimanov da iştirak edirdi. O, 1911-ci ilin aprel ayının ortalarında açılan qurultayı "Şurayi–İslam" maarifçi cəmiyyəti adından alqışlayır, "Epidemiyalar və onlarla mübarizə" mövzusunda məruzə edir.

N.Nərimanov xalq arasında geniş ictimi, siyasi, tibbi-sanitariya işi aparırdı. O, Həştərxan xalq universiteti idarə heyyətinin başçısı seçilmişdi. Cəmiyyət N.Nərimanovun rəhbərliyi ilə elmi biliklərin yayılmasında, xüsusən tibb elmi sahəsində mühüm işlər görülmüşdü. Cəmiyyətin üzvləri əhali arasında şəxsi və ümumi gigiyena, xəstəliklərin yayılma yolları, yoluxucu xəstəliklərə qarşı mübarizə üsulları, sərxoşluğun, papiros çəkməyin zərəri və s. haqqında pulsuz mühazirələr oxuyur, söhbətlər aparırdılar. N.Nərimanovun təşəbbüsü ilə hər ilin yazında Həştərxanada "Ağ çiçək" bayramı keçirilirdi. Xəstəliklərə, xüsusən vərəmə qarşı mübarizə mərasimi olan bu bayramda geniş xalq kütlələri iştirak edirdi. N.Nərimanov mərasimdə qadınların, xüsusən azlıq təşkil edən müsəlmanların iştirakını genişləndirmək üçün tədbirlər görür, tibbi mövzularda

[1] "Astarxanski vestnik" qəzeti, 16 aprel 1911.

mühazirələr oxuyur, söhbətlər aparırdı. Belə hallarda auditoriyalar ağzınacan dolu olar, yığılan pullar xeyriyyə cəmiyyətlərinə, vərəm xəstəliyi ilə mübarizə məqsədlərinə sərf olunardı. “1912-ci il aprel ayının 20-də “Ağ çiçək” bayramında 20 min manata yaxın pul toplanmışdı".[1]

1911-ci ilin may-iyun aylarında beş yüz nəfərdən çox müsəlmanın iştirak etdiyi “Ağ çiçək” bayramını N.Nərimanov məşhur tatar şairi, inqilabçı-demokrat Qabdulla Tukayın iştirakı ilə keçirmişdi.

N.Nərimanov apardığı bütün tibbi tədbirləri çox ustalıqla inqilabi hərəkatla əlaqələndirir və inqilabi fikrin yayılmasına yönəldirdi. Bu haqda “Bakinski raboçi” qəzeti belə yazırdı: “Yoldaş Nərimanov Həştərxan fəhlə və kəndliləri arasında böyük nüfuza malik olub, proletar dairələrində tanınırdı”.[2]

N.Nərimanov həkimlik fəaliyyətində gənc nəslin sağlamlığına xüsusi diqqət yetirirdi. O, Həştərxan məktəblərindən birində (Şirvanskinin direktor olduğu məktəb) uşaqlara pulsuz tibbi yardım göstərməyi öz üzərinə götürmüşdü.

O zamanlar Həştərxan şəhərində çoxlu müsəlman yaşayırdı. Ancaq yerli hökumət nümayəndələri ayrı seçkilik edir, başsız qalmış müsəlman balalarını mövcud uşaq evlərinə qəbul edirdilər. N.Nərimanovun şəxsi təşəbbüsü və tələbi ilə başsız qalmış yetimlər üçün uşaq evi açırdılar, özü isə təmənnasız onlara xidmət göstərirdi.

N.Nərimanov eyni zamanda “Həştərxan həkimləri cəmiyyəti”nin fəal üzvlərindən idi. Cəmiyyətdə böyük təşkilati işlər aparmaqla bərabər müxtəlif məsləhətlər verir, təkliflər irəli sürür, çıxışlar edirdi. Bu cəmiyyətin orqanı olan “İzvestiya Obşestva Astarxanski vraçey” məcmuəsinin hər nömrəsində N.Nərimanovun nitqləri çıxışları dərc edilmişdi. Məsələn, 1913-cü il mart–aprel nömrələrində N.Nərimanovun həkimlərə məsləhəti verilmişdi. Orada deyilirdi ki, həkimlər tez-tez mədənlərə getməli, mədən işlərinə vaxtında tibbi yardım göstərməlidirlər. “Xəbərlər”də onun dizenteriya və traxomanın müalicəsi haqqında məsləhəti verilmişdi.

Həştərxan əhalisinin N.Nərimanova ehtiramının nəticəsi olaraq 1923-cü ildə o, şəhər Dumasına qlasnı (üzv) seçilir. Bu barədə Həştərxanın qradonaçalniki yazırdı: “Mərhəmətli cənab Nərimanbəy! 1913-cü ilin yanvar ayından Siz Həştərxan şəhəri üzrə 5 nömrəli

---

[1] İqbal qəzeti , 2 may 1912-ci il.
[2] “Bakinski raboçi” qəzeti, 23 mart 1925.

sahədən 4 illik müddətə Dövlət Dumasına qlasın seçilmişsiniz. Bu barədə böyük məmnuniyyətlə Sizə xəbər verirəm”.[1]

N.Nərimanov Dumaya seçildikdən sonra açıq fəaliyyətə başlayır. “Kaspi” qəzeti yazırdı: Həştərxan qubernatoru həkim Nərimanbəy Nərimanovu şəhər dumasının nəzdində məktəblər komissiyasının üzvlüyünə təsdiq etmişdir[2]. O, Duma iclaslarında maarif-mədəniyyət və səhiyyə sahələrinin aktual məsələlərinin həllinə çalışırdı.

XX əsrin əvvəllərində Rusiyanın cənub ticarət və su yolları “qapısı” olan Həştərxan şəhərinə binəsiblər axışıb gəlmişdi. Bunların içərisində müsəlmanlar da az deyildi. Dindar və şovinist ideyalı müsəlman ziyalıları burada mürtəce istiqamətli “Cəmiyyəti islamiyyət” və “Şurayi islam” cəmiyyətləri yaratmışdılar. Bunlardan ən nüfuzlusu “Şurayi islam” idi.

Cəmiyyəti ideya cəhəttən mütərəqqi istiqamətə yönəltmək üçün N.Nərimanov “Şurayi islam”da pulsuz həkimi olmağı öz üzərinə götürür. O, 1910-cu ildə cəmiyyətin rəyasət heyətinə, sonra isə sədri vəzifəsinə seçilir. Cəmiyyəti müsəlmanların maarif-mədəniyyət mərkəzinə çevirir.

N.Nərimanovun sədrlik etdiyi “Şurayi islam” cəmiyyəti Həştərxanda yaşayan müsəlman ziyalılarının illik mərkəzi olsa da, geniş xalq kütlələrini də öz ətrafında toplaya bilmişdi. Burada müsəlmanların tərəqqisi üçün müxtəlif tədbirlər görülür, tibbi-bioloji məslələr şərh edilir, sərxoşluq, tütün çəkmək və digər zərərli adətlərlə mübarizə yolları irəli sürülürdü. “Prikaspiyski kray” qəzeti 1911-ci il 4 fevral tarixli nömrəsində yazırdı: Axundlar və mollalar da mühazirələrdə iştirak edirdilər. N.Nərimanovun cəlbedici mühazirələri oxunan zallar həmişə adamla dolu olurdu. Bu isə zəhmətkeş kütlələrin şüurunda ictimai fikrin artmasına, mədəniyyətin yüksəlməsinə kömək edirdi”.

N.Nərimanov Həştərxanda Azərbaycan mədəniyyətinin bir sıra xadimləri ilə görüşürdü. Mirzəağa Əliyev, Məmməd Səid Ordubadi, Rzaqulu Nəcəfov (mollanəsrəddinçi idi-B.Q) və b. buraya sürgün edilmişdilər. Əbdülrəhimbəy Haqverdiyev işlədiyi Xəzər Dənizçilik idarəsinin bir illik ezamiyyəti ilə Həştərxana gəlmişdi. O, N.Nərimanovla tez-tez görüşürdü. N.Nərimanov inqilabi fəaliyyətinin tədqiqatlarından olan V.Məmmədov bu barədə belə yazır. “Bir axşam Əbdülrəhimbəy H. N.Nərimanovun evinə gəlmişdi... Söhbətin şirin yerində dedilər ki, xəstə gəlmişdir. Nərimanov dərhal o biri otağa keçdi. Bir azdan sonra qayıtdı. Şalvarın saat cibindən şəxsi möhürünü çıxarıb

[1] İ.Dubinski-Muxadze. Nərimanov. s.94
[2] “Kaspi” qəzeti, 27 iyun 1913.

reseptə vurdu, sonra da pencəyinin cibindən pul çıxarıb xəstəni gətirənə verdi ki, fayton tutub tez aptekə getsinlər və dərman alsınlar.

Əbdülrəhimbəy onu danladı:

- Mərhəmət yaxşı şeydir, Nəriman. Lakin bu dərəcədə yox! Belə getsə evinin çörəyi də olmaz...”

N.Nərimanovun insanlara göstərdiyi xeyirxahlıqdan inqilabçı N.Xanbəyov öz xatirəsində belə yazırdı. “Onun kiçik otağı həmişə quberniyadan və şəhərdən gələn adamlarla dolu olardı. O yoxsulları pulsuz qəbul etməklə bərabər çox vaxt öz cibindən onlara dərman pulu da verərdi. Yoldaş Nərimanov Həştərxan fəhlələri və kəndliləri arasında böyük nüfuza malik idi. O, geniş kütlə içərisində bütün xalqların dostu kimi tanınırdı”[1].

N.Nərimanov tibb-sanitariya təşkilatlarının bilicisi kimi böyük nüfuza malik idi. Onu 1913-cü ilin mart ayında Həştərxan şəhər xəstəxanaları idarə heyətinə seçdilər. O, qısa müddətdə xəstəxanaların işini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər irəli sürür, onların həyata keçirilməsinə çalışır.

N.Nərimanov təkcə təcrübəli həkim və bacarıqlı səhiyyə təşkilatçısı deyil, bir sıra elmi publisistik kitabların müəllifi kimi də tanınmışdır. Onun “Tibb və İslam”, “Xolera”, “Hamilə arvadlara nəsihət”, “Traxoma”, “Qadın və onun nəsillərə olan təsiri” kimi elmi əsərləri tibb elminin inkişafında mühüm rol oynamışdır.

N.Nərimanov “Tibb və İslam” əsərini universitetin dördüncü kursunda oxuyarkən yazmışdı. Bu onun tibbə dair ilk əsəri idi. Əsərdə müsəlman adət-ənənələrinin özünəməxsus spesifik xüsusiyyətlərini nəzərə almaqla islam qanunlarının çoxunda tibb-səhiyyə məsələlərinin olması və bunun müsəlmanların sağlamlığının qorunmasına olan müsbət təsiri göstərirdi. İlk dəfə 1906-cı ildə “Həyat” qəzetində, yenidən işlənmiş variant isə 1910-cu ildə “Burhani-tərəqqi” qəzetində nəşr olunmuşdur. Əsər iki hissədən ibarətdir. Alleqorik şəkildə yazılmış birinci hissədə güclü və gücsüzlər, zalımla məzlumlar arasında gedən müabarizədən, ikinci hissədə isə tibb elmi ilə islam qanunları arasında olan uyğunluq və ziddiyətlərdən bəhs olunur.

Yoluxucu xəxtəliklərin yayılmasına səbəb olduğuna görə məlumdur ki, şəriyyət siçanı, pişiyi, milçəyi “murdar” elan etmişdir. N.Nərimanov məsələnin bu cəhətini tibbi nöqteyi-nəzərdən izah etməklə yanaşı siçan-pişik və milçək-hörümçək münasibətlərinə

[1] “Bakinski raboçi” qəzeti, 22 mart 1925.

ictimai məna verərək belə yazırdı: "Demək olar ki, nə siçan pişikdən ötrü nə də milçək hörümçəkdən ötrü yaranmayıblar... ancaq həyati münasibətlərdə bunlardan qüvvətli qüvvətsizə qalib gəlib, kəndi mənfəəti üçün onu puç edir..."[1] N.Nərimanov ehtiyatla da olsa bu alleqorik izahatla ictimai fikir yaratmağa, güclülərlə gücsüzlər arasındakı ziddiyyəti açmağa çalışır, müsəlman zəhmətkeşlərini sağlığa, mübarizəyə səsləyirdi.

N.Nərimanov 1905-1906-cı illərdə xalqın diqqətini inqilabi mübarizəyə cəlb edərək yazırdı: "...Nəzər salınız dörd ətrafınıza, bir yaxşı baxın dəhrin işlərinə".[2] O, dövrün ictimai həyat hadisələrində hər kəsin "ağıl, kamal və mərifətlə" fəal iştirak etməsini irəli sürürdü. Ədalət uğrunda, insanların rifahı naminə mübarizə aparan Nərimanov bu əsərində insanların şəxsiyyətinə, onun mövqeyinə, səhhətinə xüsusi diqqət yetirir, bədənin qorunmasını əsas və zəruri hesab edirdi: "Hifz-bədən" canlı vücuda məxsus xasiyyətdir... insan ağlının zoruna "Hifz-bədən"i elm dərəcəsinə çatdırıbdı, onunla özünə mühafizə yolları arayır, tapır".[3]

İnsan qayğılarının yükünü daşımağı özünə şərəf bilən N.Nərimanov millətin elmə, biliyə yol açmasını, tarixi, islam qanunlarını, yaxşı bilib onlarda mənfi-müsbət cəhətləri seçməyi bacarmağı töysiyyə edirdi. İslam adından xalqı cəhalətə aparanlara qarşı mübarizəni zəruri hesab edərək yazırdı. "Heyhat, bundan sonra damı müsəlmanlar, xabi-qəflətdə qalacaqlar? Ey şəriət və Quranın ehkamlarından bəxtəvər qalanlar!"[4]

Cəhalətin hökm sürdüyü bir dövrdə mövhumatçılar öz fikir və arzularını islam qanunu kimi irəli sürüb elmin, mədəniyyətin inkişafına maneçilik göstərir, islamla elm arasında ziddiyyət yaradırlar. N.Nərimanov islamın mənfi cəhətlərini aşkar etməklə yanaşı, onun yüz illərlə ənənəyə çevrilmiş müsbət qanunlarını davam etdirməyə çalışaraq göstərirdi ki, islam, içkilərin fəsad və zərərlərindən azmı adam xilas edibdir? İçkilərin orqanizmə olan təsirinə elmi-tibbi mahiyyətçə eyni nəzərdə baxmırmı? Digər məlum bir məsələ, islam aləmində geniş yayılmış "qüsl" "təharət", elmi-səhhətlə daha vacib hesab edilir. Qüsl əllərin dirsəklərə qədər təmiz yuyulmasını tələb edir. Bu həmdə yoluxucu xəstəliklərlə mübarizə etmək üçün görülən tədbirdir. Bədənin yuyulması -"qüsl" hifs-səhhətlə izah edilir. Bu tədbirlə tam "hifs-bədən" nəzərdə tutulur. Məsələn, namaz qılmaqdan, dua oxumaqdan, yeməkdən qabaq edilən qüsl, ölüyə toxunarkən verilən meyit qüslu tibbin böyük profilaktik tədbiridir.

[1] "Həyat" qəzeti, 15 fevral 1906.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] "Həyat" qəzeti, 15 fevral 1906.

N.Nərimanovun "Tibb və islam" əsərinin qiymətli cəhətlərindən biridə budur ki, insanlara heyvanlardan keçən xəstəliktörədici mikrobların zərərini aydınlaşdırır. O, göstərirdi: "...məlumdur, islam bir para heyvanı murdar hesab edir, yəni bu heyvanların (it, pişik və s.) dəydiyi qabı və ya heyvana əl dəyərsə əlləri mütləq qüsl etmək lazımdır. Səbəbi nədir? Məsələn, it zahirən təmiz, ağıllı heyvandır, ancaq ağzının suyunda cürbəcür mikroblar olur. Ona toxunan zaman həmən mikrobların insana keçməsi, xəstəliyə səbəb olması müşahidə olunur. Buna görə də islam iti haram hesab edir, yəni ondan qorunmağı vacib bilir. Heyvanlarla ən çox uşaqlar oynayır və xəstəliyə də onlar tez tutulurlar. Burada tibb ilə islamın mülahizə və fikirləri eynilik təşkil edir".[1]

Daha sonra N.Nərimanovun bu əsərində islamın donuz ətini haram buyurması diqqəti cəlb edir. O bunu belə izah edir ki, Şərqin isti ölkələrində donuz əti yeyənlər exinakok xəstəliyinə tutulurlar. Bu çox vaxt ölümlə nəticələnirdi. Belə vəziyyətin qarşısını almaq asan olmadığı üçün o zamanlar donuz əti haram hesab edilərək qadağan olunmuşdu. İndi donuz ətini baytar həkimləri nəzarətdən keçirib, sonra satılmasına icazə verirlər. Deməli, islamın fikri, tibbi nöqteyi-nəzərlə tam uyğun olmuşdur.

N.Nərimanovun "Tibb və islam" əsərində qüsl və yuyunmanın əhəmiyyətindən danışarkən qeyd edirdi ki, hər yuyunmadan əllər təmizlənmir, bəzi hallarda, yuyunmadan sonra da çirk qalır və həmin çirkdən sonra azar əmələ gəlir. O, bunu əlin dərisinin vəziyyəti (çatlağı, qırışığı) və təsir edən faktorun xüsusiyyəti ilə izah edirdi. Bundan əlavə Nərimanov islam qanunun suya bağlı olmasına və onun "hifs-bədən" üçün əhəmiyyətinə yüksək qiymət verirdi. O, belə yazırdı: Xülasə, hansı qanuna baxsan, islam həmişə "hifz-bədən"i nəzərdə tutur... İslamın bu qədər suya dərin diqqəti bizi vadar edir ki, su məsələsində elmi-tibbə rücu edək, görək hansı vaxtdan bəri su elmi-tibbdə intişar tapıbdır"[2].

Müəllif daha sonra Hippokratın suyun müalicəvi cəhətinə xüsusi diqqət yetirməsini göstərir və islam yaranandan suya üz çevirməsini, yəni elmi-tibblə "hifz-bədən"in qorunmasını qeyd edirdi. İslam qanunu təsiri altında "müsəlmanların hamam sevmələrini" Nərimanov müsbət hal kimi qiymətləndirir, müsəlmanlar yaşayan yerlərdə hamamların çox tikilməsini arzulayırdı. Lakin o zaman mövcud olan bəzi hamamların natəmizliyi barədə öz narazılığını bildirirdi.

---

[1] "Həyat" qəzeti, 19 fevral 1906.
[2] "Həyat" qəzeti, 19 fevral 1906.

N.Nərimanov "tibb və islam" münasibətlərinin bəzi məsələlərinə toxunmaqla, tarixi həqiqətləri üzə çıxarmaqla yanaşı müsəlman millətini ikitərəfli, yəni "hifz-bədən" probleminə diqqəti cəlb etməyə çalışır və eyni zamanda "hifz-səhhət"i daimi və gündəlik məsələ kimi qarşıya qoyurdu. O, dindarları elmin inkişafına maneçilik törətməyə, öz dinini və dilini yaxşı öyrənməyə çağırırdı. Bu barədə o, belə yazırdı: "İslam, əqli və təbii dindir. Əsl dindar heç bir elmdən qorxmaz, çünki elm təbiət aləmindən alınmışdır... ancaq bu şərtlə ki, elmləri oxuyan şəxs gərəkdir öz dilini və dilini bilsin"[1].

Müsəlmanların arasından o zamanlar dindarlar çox olduğu üçün bu iki tərəfli məsələ böyük əhəmiyyət kəsb edirdi.

Nərimanovun Həştərxanda olarkən çap etdirdiyi "Alkoqolizm", "Çaxotka" ("Vərəm"), "Əziz balalar" və başqa məqalələri hamıda böyük maraq oyadır, əldən-ələ gəzirdi. Həştərxanda nəşr etdirdiyi əsərlər Zaqafqaziyaya, hətta İrana yayılırdı.

N.Nərimanov keçmişdən cəmiyyətdən kök salmış sərxoşluğu ictimai bəla, bəşər üçün bir bədbəxtlik hesab edərək yazırdı: "İçkidən bədbəxt olanları hər gün, hər saat özünüz görürsünüz"[2]. Ona görə bu "qədim xəstəliklə" mübarizədə hər vasitədən istifadə edilməlidir.

N.Nərimanov sərxoşluqla mübarizədə bütün xeyriyyə cəmiyyətlərinin və mütərəqqi qüvvələrin mübarizəyə qoşulmalarını zəruri sayırdı. Bu məqsədlə o, "Şurayi-islam", "Ayrılıq cəmiyyəti" ("Obşestvo trezvosti"), "Həştərxan həkimlər cəmiyyəti" və digər cəmiyyətlərin tribunalarından sərxoşluqla mübarizədə geniş istifadə edirdi.

N.Nərimanov sərxoşluğa qarşı mübarizəni birgə, əlbir aparmağı səmərəli bilərək xristian dövlətlərində, xüsusən rus dövlətində "Ayrılıq cəmiyyəti" təşkil edilməsinə böyük əhəmiyyət verirdi. O, bu cəmiyyətlə, sədr müavini olduğu "Şurayi-islam" cəmiyyəti vasitəsi ilə əməkdaşlıq edərək mühazirələr oxuyur, söhbətlər aparır və başqalarını da bu işə cəlb edirdi. Azərbaycan, rus, tatar dillərində çıxan Həştərxan qəzetləri həkim Nərimanovun bu sahədəki fəaliyyətindən maraqlı məqalələr verirdilər. Məsələn, "Prikaspiyski kray" qəzeti 1911-ci il 2 fevral nömrəsində Nərimanova həmin ilin 31 yanvarında "Şurayi-islam" cəmiyyəti nəzdində "Ayrılıq cəmiyyəti" adından pulsuz mühazirə oxumasını və bu mühazirədə 400 nəfərin iştirakını xəbər verirdi. "Burhani-tərəqqi" qəzetinin 1911-ci il 4 fevral nömrəsi N.Nərimanovun "Alkoqolizm" haqqında mühazirə oxuduğunu bildirirdi.

---

[1] "Həyat" qəzeti, 19 fevral 1906.

[2] "Burhani-tərəqqi"qəzeti, 14 noyabr 1910

Sərxoşluqla mübarizənin hər bir xəstəliyə qarşı aparılan mübarizədən qat-qat çətin olmasını qeyd edərək N.Nərimanov yazırdı: “İçki xəstələri öz təhlükələrini başa düşmür və öz sağlamlığı uğrunda mübarizəyə qoşulmurlar. Əksinə, onlar içdiklərini doğrultmaq üçün cürbəcür səbəb tapırlar”[1].

N.Nərimanov “Həştərxan vərəm əleyhinə” cəmiyyətinin açılışında söylədiyi nitqində spirtli içkilərə aludə olanların arasında vərəm xəstəliyinin geniş yayılmasını göstərərək yazırdı: “Çaxotka xəstəliyinin inkişafına sərxoşluq güclü təsir göstərir”.[2]

N.Nərimanov izah edirdi ki, miqdarından asılı olmayaraq spirtli içkilərdən istifadə etmək alkoqolizmə, xroniki xəstəliyə aparıb çıxarır.

Sərxoşluq zamanı törənən əxlaqi pozğunluqları cəmiyyətin bəlası hesab edərək N.Nərimanov yazırdı: “Milyonlarca əxlaqi-ətvarlar pozulub cürbəcür bəlalara girifdar olurlar”[3]. O göstərirdi ki, öz əməllərini, hərəkətlərini qiymətləndirməyi bacarmayan, hər cür “pozğunluq” yaradan sərxoş özünə, cəmiyyətə zərər yetirir. Sərxoşluq üzündən dağılan ailələrdə “milyonlarla uşaqlar ayaqyalın, başıaçıq qalıb həlak olurdular”.

İçkiyə aludə olanların məcburi və tam müalicə olunmasını təklif edən N.Nərimanov yarımçıq müalicəyə yol verilməsini göstərərək qeyd edirdi: “Milyonlarca pul xərclənir ki, xalqı bu zaman bəladan xilas etsinlər, cifayda araq, şərab şu təsirlərini göstərirlər”.[4]

N.Nərimanov sərxoşluqla mübarizədə profilaktik tədbirləri əsas, həlledici hesab edirdi.

O dövrün ən qorxulu xəstəliklərindən biri də vərəm sayılırdı. Nərimanovun tibbi fəaliyyət illəri, əhali arasında kök salmış vərəm epidemiyasının şiddətlənməsi dövrünə düşür. Əhali arasında həmin xəstəliyin dəhşətlərini təsvir edən N.Nərimanov vərəmi “füqəralar xəstəliyi” adlandırırdı. Ağır məişət şəraiti, çətin və uzadılmış iş günü, yoxsulluq, aşağı mədəni səviyyə nəticəsində yaranan vərəm xəstəliyindən minlərlə insan ölümü getdikcə artırdı.

N.Nərimanov vərəm xəstəliyi ilə mübarizədə geniş xalq kütləsi arasında sanitariya maarifini gücləndirməyi lazım bilərək bu haqda elmi kütləvi əsər yazmağa başlayır. Bu cür əsər yazmaq üçün Həştərxan quberniyasında bir çox illər ərzində hökm sürən şiddətli epidemiya zəngin material verirdi. Kalmık və qırğız əhalisi arasında yayılmış güclü vərəm epidemiyasının səbəblərini əsaslı öyrənmək üçün Parisdən Həştərxana böyük alim

[1] “Burhani-tərəqqi”qəzeti, 14 noyabr 1910
[2] “Prikaspiyski kray” qəzeti, 20 aprel 1911
[3] “Burhani-tərəqqi”qəzeti, 14 noyabr 1910
[4] “Burhani-Tərəqqi” qəzeti, 14 noyabr 1910.

İ.İ.Meçnikov dəvət olunmuşdur. Həmin epidemiya illəri ərzində Nərimanov buradakı çoxmillətli əhaliyə təmənnasız praktiki yardım göstərir və profilaktiki tədbirlərdə fəal iştirak edirdi.

Həkim Nərimanov vərəm xəstəliyinin müalicəsi ilə yanaşı onun əhali arasında yayılmasına qarşı görülən profilaktiki tədbirlərə böyük əhəmiyyət verir və onların geniş tədbiq olunmasına çalışırdı. O, xəstələrin körpələrlə, cavanlarla təmasının məhdudlaşdırılmasını, onların istifadə etdiyi əşyaların, qab-qacağın dezinfeksiyasını, ifraz olunmuş bəlğəmin xüsusi qaba yığılıb zərərsizləşdirilməsini vacib sayırdı.

N.Nərimanov belə xəstələrin ictimai həyatda iştirak etmələrini, onların özlərinə uyğun əməklə məşğul olmalarını və bununla da orqanizmi tonusda saxlamalarını məsləhət görürdü.

N.Nərimanov Həştərxanda "Vərəm əleyhinə mübarizə cəmiyyəti"ni (liqa) təşkilində fəal iştirak edərək onun əsas vəzifələrini göstərir: "Liqa öz işini nədən başlamalıdır? Bizim fikrimizcə, geniş kütlələri vərəmlə tanış etmək liqanın ilk vəzifəsi olmalıdır. Bu məqsədə nail olmaq üçün vərəm haqqında rus, tatar və erməni dillərində mühazirələr nəşr etmək lazımdır".[1]

Həştərxan "Vərəm əleyhinə cəmiyyəti"nin ilk təşkilatçılarından bir olan həkim Nərimanov bu cəmiyyətin açılışını alqışlayaraq "Prikaspiskiy kray" qəzetində geniş məqalə ilə çıxış edərək göstərirdi: "Yeni yaranmış vərəmə qarşı mübarizə liqası öz gələcək işində nəzərə almalıdır ki, ... bir tərəfdən, Həştərxanın ağır klimatının ağciyər xəstəliyinə mənfi təsiri, digər tərəfdən, dəhşətli antisanitariya şəraiti vərəmin yayılmasına imkan yaradır və onunla mübarizəni çətinləşdirir, adamlar üçün fəlakət törədir"[2]. Beləliklə, N.Nərimanov bu məqaləsində bir tərəfdən yeni yaranmış Cəmiyyətə istiqamət verir, digər tərəfdən, Həştərxan əhalisinin acınacaqlı vəziyyətini açıq göstərirdi.

N.Nərimanov vərəm xəstəliyinə qarşı görüləcək işlər haqqında irəli sürdüyü dəyərli təkliflərə yekun vuraraq yazırdı: "Çaxotka xəstəliyini müəyyən etmək, vaxtında müalicəyə başlamaq... xəstəliyin qarşısını almaq və profilaktika işinə kömək etmək deməkdir".[3] Aparılan profilaktikanı, o, tibb elminin idealı, həqiqi yolu hesab edirdi.

N.Nərimanov müalicə və dərmanlar haqqında mətbuatda olan qeydlərində dərmanların xəstə orqanizmə təsirindən bəhs edərkən təcrübi və nəzəri cəhətdən vacib bir

---

[1] "Prikaspiyski kray" qəzeti, 20 aprel 1911.
[2] "Prikaspiyski kray" qəzeti, 20 aprel 1911.
[3] Yenə orada.

məsələni də qarşıya qoyurdu: "Azarın əvvəlinci müalicəsini harada aramalı? Dərmanlardamı, yainki bədənin özündə"[1]. Onun fikrincə xəstəliklərin müalicəsində "əvvəlinci təbib bədəndir", yəni ilk müalicə bədənin özündə olmalıdır. Nərimanov müalicədə xəstəliyə qarşı orqanizmin müqavimət qüvvəsi ilə dərmanın təsirinin vəhdət təşkil etməsini əsaslandırır. Həmçinin müalicə zamanı orqanizmin qüvvətləndirilməsini vacib faktor kimi qarşıya qoyurdu. Xəstə bədəni müalicə etmək üçün onu hər vasitə ilə qüvvəyə gətirmək lazımdır. Nərimanov göstərirdi ki, əgər orqanizmdə zəiflik varsa, deməli, "bədəndə bir neçə lazım olan əcza əskik düşübdür", yəni bədəni lazım olan qida maddələrilə təmin etmək lazımdır. İnsanın bir çox yoluxucu xəstəliklərdən mühafiz etməkdə bədənin daxili müqavimətinin rolunu da yüksək qiymətləndirirdi.

N.Nərimanov müalicənin təşkilində dərmanların düzgün seçilməsindən əlavə müalicə edən həkimin rolunu yüksək qiymətləndirirdi. Çünki bəzən xəstənin taleyi həkimin ona olan münasibətindən asılı olur. Nərimanov müalicə edən həkimi ağıllı, fərasətli, məlumatlı, diqqətli olmasını, dərman müalicəsi ilə yanaşı xəstəyə psixoloji təsir etməyi "bədəndə ruha" xüsusi diqqət verməyi tibb işçilərinin müqəddəs borcu hesab edirdi. Nərimanova görə bəzən sözün təsiri dərmandan qüvvətli olur.

Nərimanov öz qeydlərində əsasən müalicə zamanı dərmanların vaxtında, ardıcıl verilməsini, qəbul olunan dərmanın başqa orqanlara necə təsir edəcəyini qabaqcadan müəyyənləşdirməyi göstərirdi. Dərmanların orqanizmə daxil olma yollarının (ağızdan, əzələdən, qandan) xəstəliyin tələbatından asılı olaraq düzgün seçilməsini tələb edirdi. Dərmanların qəbuluna xəstələrin özlərinin diqqətli olmalarını, həkim göstərişlərini sözsüz yerinə yetirməyin vacibliyini xüsusi ilə qeyd edirdi. O, eyni zamanda ağır xəstələrin həkim məsləhətindən keçirilməsini, bir neçə həkimin fikrini ümumiləşdirməyi və bir nəticəyə gəlməyi məsləhət görürdü.

N.Nərimanov tibb elminin gündən-günə tərəqqisini, xəstəliklərinin elmi cəhətdən dərindən öyrənilməsi ilə əlaqələndirirdi. O, yazırdı: "Şu yerdə ağılın qulluğu tibb elminin qüvvət tapmasına səbəb olubdur"[2]. O, göstərirdi ki, azarın müalicəsində böyük rol oynayan xəstəliyin diaqnozunun düzgün təyin edilməsinin hər azarın öz dərmanını işlətməyə imkan verər, səhv olarsa əks təsir göstərər və ya təsirsiz qalar.

Nərimanov "elmi tibb"in inkişafında kimyəvi maddələrdən alınan dərmanların əhəmiyyəti barədə qeyd edir ki, "İnsan tapdığı dərmanların təsirini kimyanın gücü ilə

---

[1] "Burhani-Tərəqqi" qəzeti, 14 noyabr 1910.
[2] "Bürhani-tərəqqi" qəzeti, 14 noyabr 1910.

tanıtdı”[1]. O, yoluxucu xəstəliklərin müalicəsində kimyəvi dərmanların rolunu yüksək qiymətləndirir və bu elmin gələcəyinə böyük ümidlər bəsləyirdi.

Alovlu həkim-inqilabçı olan N.Nərimanov Həştərxanda olan 4 il müddətində böyük inqilabi xidmətləri ilə yanaşı maarifçi-demokrat, xalq həkimi və tibb təşkilatçısı kimi böyük hörmət və etimad qazanmışdı.

Bakının dövrü mətbuatında N.Nərimanovun Bakıya qayıdacağı barədə tez-tez yazırdılar. Bu xəbər bütün Həştərxana yayılmışdı. 1913-cü il iyul ayının 13-də Həştərxanın ən böyük və gözəl imarətlərindən birində, “Bolşoy Moskovski otel”in zalında N.Nərimanovun şərəfinə böyük ziyafət məclisi düzəldilmişdi. Burada bütün şəhər ictimaiyyəti iştirak edirdi. Mərasimdə çıxış edənlər N.Nərimanovun insanpərvərliyindən, maarifçiliyindən, həkimliyindən, görkəmli ictimai-xadim olduğundan, ədibliyindən hərarətlə danışırdılar. İyulun 14-də N.Nərimanovun həştərxanlılar “Samolyot” gəmisi ilə təntənəli surətdə Bakıya yola saldılar.

## N.NƏRİMANOV VƏ İ.MEÇNİKOV

N.Nərimanov Novorossiysk universitetində oxuyarkən, universitetin sabiq “qırmızı” professoru, böyük rus alimi İ.Meçnikovun içtimai-siyasi məsələlərdə çar despotizmin kəskin düşməni olduğunu və onun üsul-idarəsində nifrət etdiyini bilirdi.

İ.Meçnikov 1887-ci ildə Rusiyanı tərk edərək Parisə köçmüşdü. L.Paster ona öz institutunda laboratoriya vermişdi. Meçnikovun rəhbərlik etdiyi laboratoriya o zaman tibb elminin mərkəzinə çevrilmişdi. Onun bakteriologiyaya aid bir çox əsərləri vardı. Bu əsərlərdə vəba, çüzam, vərəm, qarın yatalağı və s. yolxucu xəstəliklərin epidemiologiyasından bəhs edilirdi.

1911–ci ildə Həştərxan quberniyasında vərəm və taun epidemiyasının başlanması ilə əlaqədar ölkə üçün təhlükəli vəziyyət yaranmışdı. Bu xəbər Parisdə İ.Meçnikova da çatmışdı. O, böyük fəlakəti dəf etmək işində xalqa kömək əlini uzatmaq və onun yayılmasına imkan verməyən tədbirlər işləyib hazırlamaq məqsədilə Rusiyaya gəlmişdi.[2]

İ.Meçinkov İtaliya alimi Salimben, fransız alimi Byurene, Yaponiya alimi Yamanuçidən ibarət kiçik bir ekspedisiya ilə Moskvaya gəlir. Meçnikovun arvadı Olqa

[1] Yenə orada.
[2] S.Reznik. İ.Meçinkov M 1973, c. 338.

Nikolayevna da ərini tək buraxmayaraq, onlara qoşulur. Meçinkov Moskvada bir sıra elmi cəmiyyətlərdə görüş keçirmək üçün dəvətnamələr alır, lakin vaxtı çatmadığından heç birini qəbul etmədən onlardan sabiq tələbələri Taraseviç və Şukeviçi özü ilə götürərək Nijni-Novqoroda, oradan da Volqa ilə Həştərxana yola düşür.

1911-ci il may ayının 17-də Meçnikovun ekspedisiyası "Dostoyevski" gəmisi ilə Həştərxana gəlir.[1] Limanda onları rəsmi hökumət nümayəndələri, elm və maarifçi cəmiyyətlərin müvəkkilləri qarşılayır. Burada iştirak edən N.Nərimanov böyük alimi müsəlman ziyalılarının və "Şurayi-islam" cəmiyyətinin adından səmimiyyətlə salamlayır və uzun illər rəğbət bəslədiyi şəxslə ilk dəfə görüşür. "Həştərxan həkimlər cəmiyyəti" və "Həştərxan baytarlıq cəmiyyəti" İ.Meçnikovla təntənəli görüş keçirməyə hazırlaşır. Bu tədbirin təşəbbüskarlarından və təşkilatçılarından biri də N.Nərimanov idi.

Görüş 1911-ci il mayın 20-də şəhər seminariyasının böyük zalında keçirilir. Görüşə həkimlər, müəllimlər, elmi işçilər, mühəndislər, fəhlələr, tacirlər, ruhanilər gəlmişdilər. Onların arasında çoxlu qadın da var idi. Min nəfərəlik salon tamamilə dolmuşdu. Görüşə Həştərxanın qubernatoru general-leytenant İ.N.Sokolovski, onun qızları və müavini də gəlmişdilər. Dünya şöhrəti qazanmış Meçnikovu hamı görmək istəyirdi... "Həştərxan stomatoloji cəmiyyəti"nin sədri doktor F.Fərmanovun müşayəti ilə İ.Meçnikovu, onun arvadı Olqa Nikolayevnanı və elmi əməkdaşları, zaldakılar uzun sürən alqışlarla qarşıladılar. Meçnikov məclisin rəyasət heyətinə qoyulmuş fəxri stolun arxasında əyləşdi. Məclisin sədri qısa nitqini "Vətənin vüqarı, şöhrəti, dünyanın məşhur alimi Meçnikova eşq olsun!"[2] – sözləri ilə bitirdi.

Görüşdə həkim N.Nərimanova söz verilərkən hamı onu xitabət kürsüsünə qədər sürəkli alqışlarla qarşıladı. Görüş iştirakçılarının Nərimanovu belə hörmətlə qarşılaması Meçnikovda dərin maraq hissi oyatdı. O, natiqin nüfuzlu şəxsiyyət olmasını hiss edir, ona xüsusi diqqət yetirirdi.

Qubernator gizlicə N.Nərimanovu izləyir, onun sürgündə olmasını xatırlayır, rəyasət heyətində, hətta onunla bir sırada oturmasından hiddətlənirdi. Lakin Nərimanovun adı çəkilərkən gurlayan alqışlar qubernatora çox şeyi xatırlatmışdı. O, salondakılar arasında özünü pis vəziyyətdə qoymamaq üçün hərdən əl çalırdı.

N.Nərimanov nitqinə belə başladı: "Çox hörmətli İlya İliç! Müsəlman təliminə görə özünümühafizə ən vacib məsələlərdən biri hesab edilir. Burada bütün tədbilər ona yönəlir

---

[1] "Astraxanskı vestinik" qəzeti, 21 may 1911.
[2] "Astraxanskı vestinik" qəzeti, 21 may 1911.

ki, müsəlman öz orqanizmini xarici mühitin zərərli amillərindən mühafizə etməyi bacarsın... Özünümühafizə təbabət elmi ilə bağlanmalıdır. Bu elmin ən böyük nümayəndələrindən, insanı xarici mühitin zərərli amillərindən mühafizə edən ən qüdrətli şəxsiyyətlərdən biri Sizsiniz, İlya İliç! Sizin elmi axtarışlarınızdır. Çox hörmətli İlya İliç! İnsana məhəbbət, xəstəliyin səbəblərini öyrənmək, müvəqqəti olsa da Sizi dünyada ən mədəni bir şəhəri tərk edib... bu şəhərə gətirmişdir ki, Siz insanların bu bəladan xilas olmalarına kömək edəsiniz”[1].

Nərimanov Meçnikovun insanpərvərliyindən, vətəndaşlıq hissindən bəhs edərək onun bu cəsarətli səfərini yüksək qiymətləndirərək daha sonra demişdi: “Bu xalqların içərisində Siz müsəlmanlarla rastlaşacaqsınız, Siz onların əziz qonağısınız. Siz təbabət elmi əsasında onlara öz qüdrətli sözünüzü, özünümühafizə haqqındakı fikrinizi söyləsəniz, onlar bir qanun kimi Sizin tövsiyyənizə əməl edəcəklər. Müsəlman ziyalıları cəmiyyəti “Şurayi-islam” Sizin apardığınız elmi axtarışlara hərtərəfli kömək göstərməyə hazırdır. Müsəlman ziyalıları cəmiyyəti adından Sizi təbrik edir və onların xoş arzularını məmnuniyyətlə Sizə çatdırıram, Sizə sağlamlıq və çətin, şərəfli işinizdə müvəffəqiyyətlər arzu edirəm”[2].

Sonra Meçnikova söz verilərkən salon onu gururltulu alqışlarla qarşılamışdı. Meçnikov öz çıxışında əvvəl qocalmaya və ölümə səbəb olan, orqanizmin mikroblar və bağırsaqda çürümə əmələ gətirən bakteriyaların ifraz etdiyi zəhərlərlə zəhəhrlənməsindən, ömrün uzadılması haqqında öz nəzəriyyəsinin əsaslarında danışmış, materialist baxımdan bir sıra tibbi-bioloji məsələlərə toxunmuşdu. Onun çıxışı məclisdə iştirak edən qubernatorun və ruhani başçılarının xoşuna gəlməsə də, həmin gün Meçnikovun şərərfinə çoxlu xoş sözlər deyilmişdi. Təntənəli yığıncaqdan sonra fəxri qonaqların və görüşdə iştirak edən nümayəndələrin şərəfinə qonaqlıq verilmişdi. Bu görüş N.Nərimanovun Meçnikovla ilk şəxsi görüşü idi. Söhbət Odessa universitetinin ictimai-siyasi hadisələrini əhatə edir, mütərəqqi alimlərin fəaliyyətindən gedirdi.

İ.Meçnikov öz ekspediyası ilə Həştərxanda qaldığı bir ay yarım müddətdə epidemiya əleyhinə ciddi mübarizə aparmaqla bərabər quberniyada epidemioloji vəziyyətlə əlaqədar görülmüş tədbirlərlə maraqlanmış, bu barədə N.Nərimanovla bir neçə dəfə söhbətləri olmuşdu. O, “Şurayi-islam” və “Həştərxan həkimlər cəmiyyəti” xəttilə epidemiya əleyhinə görülən işlərdən danışmışdı. Meçnikov görülmüş tədbirləri yüksək

[1] “Astraxanski vestnik” qəzeti, 21 may 1911.
[2] Yenə orada.

qiymətləndirmiş və bu işlərdə N.Nərimaovun rolunu xüsusi qeyd etmişdi. Belə səmərəli görüşlər onları bir-birilə daha da yaxınlaşdırmış, dost etmişdi.

Meçnikovun Həştərxanda qaldığı müddətdə Nərimanovla daha bir neçə dəfə səmərəli və səmimi görüşü olmuşdu. Onlar bir-birini şəxsən tanımış və dostlaşmışdılar. N.Nərimanov bu dostluğu həmişə yüksək qiymətləndirmişdir. Bunu Meçnikovun vəfatı münasibətilə çıxışından aydın görmək olar.

1916-cı ilin iyul ayında Nərimanov həmkarı və dostu İlya İliç Meçnikovun Fransada vəfatından xəbər tutarkən çox mütəəssir olmuşdu. Dünya mətbuatında yayılmış bu ağır xəbər haqqında məlumat Bakı qəzetlərində də dərc olunmuşdu. Bu münasibətlə N.Nərimanov ürək ağrısı ilə yazırdı: "İnsan var ki, ölər, yox olar və onun yoxluğunu ancaq yaxın qohum-əqrəbası hiss edər. İnsan var ki, ölər və onun ölməyi bütün millətlərə təsir edər. İlya İliç Meçnikovun ölümü, yoxluğu, doğrudan da hamı millətləri, bütün insanları ələm dəryasına qərq etmişdir"[1].

Nərimanov böyük alimin ölümünü bir millətin, xalqın, yaxud ölkənin itkisi deyil, bütün millətlərin, xalqların itkisi kimi qiymətləndirirdi. Ömrünü insanların sağlamlığı işinə həsr etmiş fədakar alim, ardıcıl darvisint olan Meçnikov Darvinin təkamül nəzəriyyəsini yaradıcılıqla inkişaf etdirirdi. Bir materialis kimi Meçnikov biologiyada idealizm cərəyanlarına qarşı açıq çıxış edirdi. Meçnikov ümumnəzəri və fəlsəfi problemlərə də toxunur, dini, idealist-mistik dünyagörüşünü tənqid edirdi. Meçnikovun elmi axtarışlarından biri insan ömrünün uzanması problemi idi. Bəşər cəmiyyəti üçün əvəzedilməz olan bu məsələ Meçnikovu ömrünün axırına qədər düşündürmüşdü. N.Nərimanov alimin bu axtarışına yüksək qiymət verərək yazırdı: "İnsan üçün ömrü uzatmaq, çox yaşamaq məsələsindən başqa daha əhəmiyyətli bir məsələ ola bilərmi?! Əslində belədir. İnsan ömrünün uzadılması problemi hələ də zəmanəmizin ən vacib məsələsi kimi İlya İliçin axırıncı ideali, son xəyalı və arzusu idi.

Bu məqsəd və arzusuna özü tamamilə çatmadısa, bu yoldakı gizlin xəzinələrin aşkar olunmasına səbəb oldu, yəni gələcəyin alimləri üçün gedilməsi ağır və çətin olan yolu asanlaşdırdı. Qaranlıq nöqtələri işıqlandırdı"[2].

İ.İ.Meçnikova böyük şöhrət gətirən kəşflərindən biri də ağ can kürəciklərinin faqositoz prosesidir. Onun bu kəşfini Nərimanov belə qiymətləndirirdi: "Meçnikovun bu

---

[1] "Açıq söz" qəzeti, 21 iyul 1916.
[2] "Açıq söz" qəzeti, 21 iyul 1916.

nəzəriyyəsi tibbdə doğrudan da, bir inqilab törətdi... Böyük dönüşə və inkişafa səbəb olmaqla yanaşı, təcrübi və nəzəri cəhətdən tibb elmini zənginləşdirdi”[1].

N.Nərimanov həmin məqaləsində daha sonra Meçnikov təlimin genişliyini, qabaqcıl olduğunu göstərərək yazırdı ki, təbabət aləmində “Meçnikov məktəbi” meydana gəldi. Həqiqətən, “Meçnikov məktəbi” mütərəqqi ideyası və istiqaməti ilə dünya elminə yenilik gətirmişdi.

N.Nərimaov öz məqaləsində Meçnikovun ancaq alimliyini deyil, onun ictimai nüfuzunu, çar mütləqiyyətinin elmə zidd tədbirlərinə qarşı münasibətini açıb göstərməyə çalışırdı. O yazırdı: “Meçnikov vətəni Rusiyanı səmimi-qəlbdən sevənlərdəndir. Fəqət onunla bərabər 20 il bundan müqəddəm Meçnikov “elmi ancaq hüriyyət aləmində tərəqqi tapar” sözlərini deyənlərdən idi. O vaxtlarda bu sözləri söyləyənlər üçün, bu əqidədə olanlar üçün Rusiyada yaşamaq mümkün deyildi. Bu səbəblərə görə Meçnikov sevimli vətənini tərk edib Fransanı özünə ikinci vətən seçdi”[2].

N.Nərimanov Fransada Meçnikovun səmimi qarşılanmasından, onun işləməsi üçün bütün şəraitin yaradılmasından danışaraq göstərirdi ki, “Fransada əvvəlinci gündən Meçnikovu qucaqladılar... Xüsusi laboratoriya verib dedilər, işləyiniz. Meçnikov da işlədi, işləyib də indiki dərəcəyə çatdı, yəni dünyada məşhur bir alim oldu”[3].

N.Nərimanov buradaca çar höküməti başçılarının riyakarlığını açıb göstərir ki, Meçnikov dünyada şöhrət qazanmış alim olandan sonra onu “Rusiya dövləti 1909-cu ildə özü dəvət etdi və Meçnikova yüksək səviyyədə hörmət olundu. Rusiyada demək olar ki, İlya İliç Meçnikov şan-şövkətdə qraf Tolstoydan sonra ikinci bir adam idi”[4]. N.Nərimaov çar hökümətinin L.N.Tolstoya və İ.İ.Meçnikova toxuna bilməməsinin səbəbini “bunların hamiləri bütün insanlar olmağa binaən, şəxslərinə əl uzatmaqdan çəkinmələri idi”[5].

Böyük alim haqqında ürək sözlərini deyən N.Nərimanov yenə də onun itkisinə kədərlənərək deyirdi ki, həqiqətən, Meçnikovu bir Rusiya və ya bir Fransa itirmədi. Bəlkə hamı millətlər itirdilər.

İ.İ.Meçnikov bir mübariz ateist kimi mistisizm, nadanlıq və dini ənənələrə qarşı çıxış edir. O ancaq elmin, biliyin qüdrətinə, insana və onun təfəkkürünə inanırdı.

---

[1] Yenə orada.
[2] Yenə orada
[3] “Açıq söz” qəzeti, 21 iyul 1916.
[4] Yenə orada
[5] Yenə orada

Görkəmli inqilabçı-həkim Nərimanovu böyük rus alimi İlya İliç Meçnikovla birləşdirən hər şeydən əvvəl, onların insanpərvərliyi, vətənpərvərliyi, istibdada və çar mütləqiyyətinə qarşı nifrət hissi idi.

## N.NƏRİMANOVUN HƏKİMLİK FƏALİYYƏTİNİN BAKI DÖVRÜ
## (1913 – 1918-ci illər)

Həştərxan sürgünü qurtardıqdan sonra N.Nərimanov 1913-cü ilin iyul ayında Bakıya qayıdır. O, 19 iyulda Bakıdan verdiyi teleqramda həştərxanlılara ona göstərdikləri hörmət üçün təşəkkürünü bildirirdi. N.Nərimanovun qardaşı qızı İltifat xanım sürgünü çəkib qurtardıqdan sonra Bakıya qayıtmaları və əmisinin yenidən həkimlik fəaliyyətinə başlaması barədə öz xatirələrində belə qeyd edir: “Bir neçə ay Səkinə bibimin Yuxarı Dağlıq küçəsindəki evində qaldıq, sonra əmim Babayevin evinin ikinci mərtəbəsində, kişi gimnaziyası ilə üzbəüz binada mənzil tutdu... Bütün ailəmiz yeni mənzilə köçdü.

Nədənsə əmim həkim işləmək üçün uzun müddət Bakıda yer tapa bilmədi. Ancaq bir ildən sonra yayda iri fəhlə rayonu olan Qaraşəhərdəki müalicəxanada işə düzəldi. O, tez-tez evdə xəstələr üçün yemək bişirməyi tapşırır, onlara meyvə alıb özü xəstəxanaya aparırdı. Səhər tezdən və axşam, az qala gecə vaxtı da evdə xəstə qəbul edirdi. Bəzən reseptlə birlikdə dərman pulu da verir, deyirdi ki, bizim camaat mollanın yanına gedər, amma dərmana pul xərcləməz. Evdə xəstələrlə söhbət edir, tapşırırdı ki, mollaların, ara həkimlərinin yanına getməsinlər, başa salırdı ki, çadra gözün traxoma xəstəliyinə tutulmasına səbəb olur. Elə xəstələr olurdu ki, oturub uzun-uzadı söhbət edirdilər. Onlar üçün kabinetə çay aparırdıq. Sonralar öyrəndim ki, bunlar əmimin “Hümmət”dəki ən yaxın yoldaşları imiş – Əzizbəyov, Əfəndiyev, Sərdarov, Qədirli. Onlar gedəndən sonra əmim öz kabinetinə qayıdır, gecə yarısınadək nə isə yazırdı. ... Nəriman əmi çox gec, sürgündən sonra evlənmişdi... Gülsüm Əliyeva ilə 1913-cü ildə evləndi. Gülsüm evdə təhsil almışdı, rus dilini yaxşı bilirdi. Mehriban dolanırdılar. Əmim həlim adam idi. Gülsüm bizim evə gələn kimi çadrasını çıxarıb atdı.

Yay tətili zamanı Şamaxıya getməyimiz yadımdadır. Nəriman əmi Bakıda ləngimişdi, biz günləri sayırdıq. Axır ki, gəlib çıxdı. Kəndlilər xəbər tutdular. Hər tərəfdən evimizə xəstələr axışırdı, iflic, ümidsiz adamları da gətirirdilər. Gülsüm xanım dad

eləyirdi: “Doktor, sən dincəlməyə gəlmisən, deyəcəyəm ki, xəstə qəbul eləmirsən”. Əmim qəti etiraz etdi: “Mən şadam, xoşbəxtəm ki, camaat mənim yanıma gəlir, mollanın, ara həkimin yanına yox. Həmişə, hər yerdə yardım göstərmək, həkim andıdır. Xahiş edirəm qulağında sırğa olsun!”[1].

N.Nərimanovun xəstə qəbul etməsi barədə xəbər tez bir zamanda şəhərdə yayılmışdı. Onun qəbuluna düşmək istəyənlərin sayı gündən-günə artırdı. O, yoxsul xəstələrdən pul almazdı. “Kaspi” qəzeti[2] öz səhifələrində doktor Nərimanovun evdə xəstə qəbul etməsi barədə xəbər dərc edir və iş saatlarını göstərirdi. Nərimanovun öz evində xəstə qəbul etməsi ona inqilabçı yoldaşları və yaxın dostları ilə görüşməyə imkan verirdi. Hər cümə günü dostları: Abdulla Şaiq, Nəcəfbəy Vəzirov, rəssam Əzim Əzimzadə, Qori seminariyasında oxuduğu sinif yoldaşları Qənizadə və Mahmudbəyov, müğənni Hüseynqulu Sarabski, rejissor Hüseyn Ərəblinski və başqaları bir yerə toplaşardılar.

N.Nərimanov Bakı tibb-sanitariya bürosuna 1913-cü ildə verdiyi ərizəsinə, nəhayət, 10 aydan sonra 1914-cü il mayın 22-də belə bir cavab gəldi: “Həkim Nərimanbəy Nərimanova. Tibb-sanitariya bürosu bildirir ki, bələdiyyə idarəsi sizi Qaraşəhərdəki müvəqqəti müalicəxananın həkimi vəzifəsinə təyin etmişdir. Xahiş olunur əlavə etdiyimiz vərəqəni doldurasınız”[3].

Müvəqqəti pulsuz müalicəxana şəhərin kənarında “Qaraşəhər” deyilən sahədə, neft emalı zavodları, bir sıra xırda emalatxanalar, fəhlə barakları olan ərazidə yerləşirdi. Müalicəxana üçün üç dar, nəmli, yarımqaranlıq otaq ayrılmışdı. Otaqları qaydaya salmağı Nərimanov öhdəsinə götürür, ətrafına bacarıqlı köməkçilər toplayıb, müalicəxananı açır. “İqbal” qəzeti müalicəxananın açılması barədə belə bir məlumat dərc etmişdi: “Qaraşəhərdə “Runo” cəmiyyətinin imarətində müalicəxana açılmışdır. Müalicəxananın naziri (müdiri-Q.B.) doktor Nərimanbəy Nərimanovdur. O, burada xəstə qəbul edir”[4].

Bu kiçik müalicəxanada, Qaraşəhərdə yaşayan fəhlələlərə, xidmətçilərə, yoxsul əhaliyə tibbi yardım göstəriləcəkdi. Nərimanov eyni zamanda müalicəxanaya imkanı olmayan xəstələrin çağırışı ilə onların evinə gedir, xəstələrə bilavasitə evində tibbi yardım göstərirdi. Xəstələrə diqqət, qayğı və məhəbbətlə yanaşması, bütün gününü onlara sərf etməsi ilə Nərimanov xalqın dərin rəğbətini qazanır. Tez bir zamanda müalicəxana bütün Bakıda şöhrətlənir, bura nəinki şəhərdən, həmçinin Bakı ətrafı kəndlərdən də axın-axın

---

[1] İ.Dubinski-Muxadze. Nərimanov. s. 99 – 101.
[2] “Kaspi” qəzeti, 21 avqust 1913.
[3] “Azərbaycan tibb jurnalı”, №1, 1958, s. 69
[4] “İqbal” qəzeti, 13 iyul 1914-cü il.

xəstələr gəlməyə başlayır. Nərimanov istirahət günləri də xəstə qəbul edirdi. Nərimanovun ilk yarımillik fəaliyyəti haqqında Bakı tibb-sanitariya bürosunun hesabatında göstərilirdi ki, çox gərgin işləyir, qəbul vaxtını məhdudlaşdırmırdı. Bir gündə onun qəbuluna 50-dən 80-ə kimi xəstə gəlirdi və onlara hər cür tibbi yardım göstərilirdi. 1914-cü ilin altı ayı ərzində Nərimanov 11765 xəstə qəbul etmiş, 2441 nəfərə cərrahi yardım göstərmişdir. 9418 resept yazmışdır.

N.Nərimanov çıxışlarının birində deyirdi: "Həkimlərin xəstələrin qəbuluna vaxtı çox az qalır. Hər bir xəstəyə orta hesabla 2 dəqiqədən 3,5 dəqiqəyədək vaxt sərf edə bilirlər".

N.Nərimanov həkimləri insanpərvərliyə, öz sənətini sədaqətlə yerinə yetirməyə, xəstənin mənafeyini hər şeydən yüksək tutmağa dəvət edir, ağır vəziyyətdə olan əhaliyə hərtərəfli tibbi yardım göstərməyə çağırırdı. Lakin buna baxmayaraq Bakı fəhlələrinin vəziyyəti olduqca acınacaqlı idi.

Qara qızıl diyarı Bakının şöhrəti bütün dünyaya yayılırdı. Neftlə əlaqədar əyalətin siması dəyişirdi. Gündən-günə böyüyən şəhərdən üfunətdən nəfəs almaq olmurdu. Evlərdə saxlanan mal-qara, qoşqu atlarının çoxalması, bir yandan havanı korlayır, digər tərəfdən isə yoluxucu xəstəliklərin yayılmasına səbəb olurdu.

XX əsrin əvvəlində Bakıda 200-dən çox irili-xırdalı zavod və fabrik vardı. Neft hasilatı ildən-ilə artırdı. Bakı neft sənayesi kapitalı inkişaf yoluna qədəm qoyurdu. Fəhlələrin ağır vəziyyətinə, onların iş şəraitinə, şikayətlərinə əhəmiyyət verilmirdi.

Mədənlərin mənzərəsi acınacaqlı idi. Dərə-təpə, torpaq küçələr üfunətli, çalalar peyinlə, mazutla dolmuşdu. Yağışda palçıq dizə qalxır, qışda şaxta olur, yayda göydən od yağırdı. Xəzri qopanda tozdan göz-gözü görmür, şəhər və mədən əhalisinin çoxu xəstə olurdu.

Nefttəmizləyən və emal edən zavodlar kükürd turşusu, misəridən, çuqun istehsal edən (və digər yüzdən çox) zavodlar Qaraşəhər və Ağşəhərdə yerləşirdi. Gecə-gündüz göydən his yağırdı, hər şey qara rəngə boyanmışdı. Hava da zəhərli idi. Tez-tez yanğınlar baş verir, iri çənlər partlayır, evlər, kazarma, barak, emalatxana və zavodlar külə dönərdi. Fəhlələrin əksəriyyəti vərəm və təngnənəfəslik azaraına tutulur, tez qocalırdılar. Çoxları həmişəlik əlil olardı.

Fontan baş verəndə, iş o qədər gərgin, ağır və çətin olurdu ki, bir neçə fəhlə ölür, şikəst olurdu.

Fəhlələrin yaşadıqları kazarmalar dustaqxana kimi yer idi; damlar deşik-deşik, yağış içəri damırdı; çox vaxt balaca pəncərələrin şüşəsi olmazdı, olanları da yarımsınıq, bina sahibi icarə pulunu alan kimi yoxa çıxır, iki-üç ildən sonra yeni müqavilə bağlamaq üçün gələrdi. “Otaqlara” mümkün qədər çox fəhlə yerləşdirərdilər. Divarlardan asılan paltarlardan, patava və ayaqqabılardan, ümumiyyətlə, bütün binadan ürəkbulandıran üfunət qalxardı. Buna yaşamaq demək olmazdı.

Neft sənayeçilərinin himayəsində olan Qaraşəhər, Ağşəhər, Bibiheybət, Balaxanı müalicəxanalarında xəstələrin qəbulu şəraiti, onlara tibbi yardım olduqca pis vəziyyətdə idi. Eyni zamanda xəstələrin dərmanla təchiz olunmasında böyük nöqsanlar var idi. Yerli əczaçı kadrlar olmadığı üçün dərmanların qəbulu qaydaları pozulurdu[1].

Bakı neft sənayesi fəhlələri böyük mübarizədən sonra pulsuz müalicə olunmağa guya hüquq qazanmışdılar. Lakin əslində bu belə deyildi. Neft sahibkarları fəhlələrə müalicə olunmağa imkan verməmək üçün müalicəxanaya getmək istəyən hər bir fəhlənin 10 qəpiklik talon götürməsini “icad” etmişdilər. Bu “icad” fəhlələrə çox baha başa gəlirdi. Hər dəfə sahibkara talon üçün müraciət edib xəstəliyi bildirmək, fəhlənin işdən çıxarılması təhlükəsini yaradırdı. Odur ki, fəhlə xəstə olsa da, müalicəxanaya getmirdi. Beləliklə, 10 qəpiklik talonun işə salınması fəhlələrin müalicə olunmasına maneçilik törədirdi. Nərimanov özünün tibb fəaliyyətində bu çətinlikləri görür, onların aradan qaldırılmasına və əhaliyə tibbi yardımın canlandırılmasına çalışırdı.

Bakıda ilk müalicəxanaların təşkilində N.Nərimanovla yanaşı V.Qaibov, M.Vəkilov, və başqa görkəmli həkimlər də çalışmışlar. Bu dövrdə Bakı bolşeviklərinin bütün şüarı və tələbnamələrində əhaliyə tibbi yardımın artırılması əsas yer tuturdu.

Həkimlik peşəsi N.Nərimanova xalqla sıx əlaqə yaratmağa və əhali arasında siyasi iş aparmağa böyük imkanlar verirdi. N.Nərimaov tez-tez mühazirə və məruzələrlə çıxış edir, nəzəri və praktik tibbin ən mühüm problemləri üzrə bir sıra elmi-kütləvi əsərlər nəşr etdirir. Bu əsərlərində o, ictimai, siyasi və tibbi problemləri sıx əlaqələndirir, xalqın bədbəxtliklərinin ictimai səbəblərini geniş surətdə aşkara çıxarırdı.

Bakının və onun ətraf rayonlarının sənaye müəssisələrindəki çox ağır əmək şəraiti, kənd əhalisinin kölə vəziyyəti, aşağı həyat səviyyəsi, sanitariya, gigiyena vəziyyətinin pis olması müxtəlif epidemik xəstəliklərin tez-tez baş verməsinə və inkişaf etməsinə imkan yaradırdı. Belə şəraitdə iki istiqamətdə iş aparılmalı idi: əvvəla bəlanın ictimai köklərini

[1] Bax.: M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, Azərnəşr, 1987, s. 79.

aşakara çıxarıb, xalqa izah etmək, ikincisi isə əhaliyə praktik tibbi yardımı təşkil etmək lazım idi.

N.Nərimanovun tibbi-ictimai problemlərə həsr olunmuş əsərlərinə "Traxoma", "Vərəm", "Vəba", "Yatalaq", "Dizenteriya" və s. aid edilə bilər. Bu əsərlərində və çıxışlarında Nərimanov səhiyyə təşkilatçılarını və praktiki həkimləri "xəstəliklərin qarşısının alınması məqsədilə insanların məişətinə ciddi fikir verməyə" çağırırdı. Bu baxımdan N.Nərimaovun bilavasitə iştirakı ilə tərtib olunmuş "Neft sənayesi sahiblərinin qurultayı müəssisələrində tibbi yardımın təşkilinə və göstərilməsi qayğısına dair" sənəd sağlamlaşdırıcı tədbir cəhətdən çox maraqlıdır. Həmin sənəddə göstərilir ki, tibbi yardım göstərilməsinin təşkili və onun həyata keçirilməsi üsulları həmişə ciddi ictimai məsələdir.

N.Nərimaovun Bakı qəzetlərinin səhifələrində dərc olunmuş "Traxoma" əsəri mövcud kapitalizm quruluşuna qarşı ittiham aktı kimi səslənirdi. O, traxoma xəstəliyinin geniş xalq kütlələri arasında yayılmasını, törətdiyi ağırlaşmaları dərindən təhlil edərək yazırdı: "Traxoma – cəmiyyətin, millətin bədbəxtliyidir[1]. Traxomaya tutulmuş yüz minlərlə adam uzun müddət əmək qabilliyyətini itirir, çoxları isə əlillik dərəcəsinə çatırdı. N.Nərimanov deyirdi: "Bakıda traxoma getdikcə daha çox yayılır, nə qədər adam traxomaya tutulmuşdur. Bunların neçəsi kor olmuş və neçəsi kor olacaqdır[2]. Bu ictimai bəlanın qarşısını almaq üçün çar hökümətі heç bir tədbir görmürdü. Xəstəlik isə əhali arasında gündən-günə artırdı. Nərimanov bu barədə belə yazırdı: "Müsəlmanlar arasında qeyri-sirayətedici mərəzlər çox intişar tapdığı kimi göz ağrısı (traxoma) da artıq dərəcədə şiddət etməkdədir"[3]. Bu xəstəliyin yayılması mövcud məişət şəraiti ilə əlaqədar idi. Fəhlələrin güzəranı çox acınacaqlı keçirdi. Fəhlə ümumi yataqxanası və fəhlə ailəsi üçün hazırlanmış baraklar adətən neft mədənlərinin, fabrik-zavodların ərazisində, çirkli, susuz, şəraiti pis olan yerlərdə tikilir, məişət xidməti üçün heç bir imkan yaradılmırdı. Belə şərait yoluxucu xəstəliklərə, onların yayılmasına yol açırdı. Şübhəsiz burada maddi vəsait çatışmazlığı da öz mənfi təsirini göstərirdi. Bu barədə N.Nərimanov belə yazırdı: "Naxoş sildiyi üzsilənlə evdə hamı üzünü silir, şübhəsiz qeyrilər həmin üzsilən vasitəsilə traxomaya mübtəla olacaqdır"[4]. Müəllif məqaləsində başqa ev əşyalarının çatmazlığından və onların yoluxdurucu səbəblərindən bəhs edir. Nərimaov bu xıstılik barəsində ürək aörısı ilə deyirdi: "Bir Bakı şəhərində hamı müsəlmanlardan... bu naxoşluğa kiriftar olanların

[1] "Yeni iqbal", 15 yanvar 1916.
[2] "Yeni iqbal", 3 yanvar 1916.
[3] "Yeni iqbal" qəzeti, 3 yanvar 1916.
[4] "Yeni iqbal" qəzeti, 15 yanvar 1916.

ədədi təxminən iyirmi mindir”[1]. Bu rəqəmlər müalicə ocaqlarına müraciət etmiş və qeydə alınmış xəstələrin miqdarını göstərirdi. Şübhəsiz ki, şəxsi həkimlərə, türkəçarəçilərə, cadugərlərə müraciət edənləri, müalicəsiz qalanları nəzərə alsaq, bu xəstəliyə tutulanların sayı daha çox olardı. Kəndlərlə isə vəziyyət daha ağır idi.

N.Nərimanovu uşaqların və yeniyetmələrin sağlamlığı daha çox narahat edirdi. O, Həştərxan sürgünündən Bakıya qayıdandan sonra traxomanın uşaqlar arasında yayılması haqda məlumat toplayır və bu xəstələrə tibbi yardım göstərilməsi tədbirinə can atırdı. Uşaqların traxomaya yoluxması barədə Nərimanov qeyd edirdi ki, “Açıq söyləməli: hamı rus-müsəlman məktəblərində oxuyan uşaqların üçdən bir hissəsi traxoma mərəzinə mübtəladır”[2].

Traxoma xəstəliyi təkcə Bakıda deyil, bütün Qafqazda yayılmışdı. N.Nərimanov yazdığına görə: “Traxomadan Qafqazda, xüsusən Bakıda kor və göz ağrısına mübtəla olanlar çoxdur”[3].

Qafqaz xalqlarından başqa Rusiyada yaşayan əhali arasında da traxoma xəstəliyi geniş yayılmışdı. Bu xəstəlik XIX əsrin axırlarında rus torpağı ərazisində ən çox yayılmış xəstəliklərdən biri hesab olunurdu. Məhz buna görə də N.Nərimanov Azərbaycanda yayılmış traxoma xəstəliyinə bütün ölkənin ictimai xəstəliyi kimi baxır və “Traxoma xəstəliyi xalqın bədbəxtlidiyidir” deyə Rusiyada bu xəstəliyin törətdiyi dəhşətlərdən danışırdı. N.Nərimanov yazırdı: “Rusiyada... hazırda 300 minə qədər kor var”[4]. Burada hələ ağırlaşma törətməmiş xəstəlik keçirənlər də nəzərə alınarsa bu xəstəliyin xalq üçün nə qədər dəhşətli olduğunu aydın təsəvvür etmək olar.

N.Nərimanov traxoma xəstəliyinin əhali arasında geniş yayılıb gündən-günə inkişaf etməsində və uzun illər boyu qarşısının alınmasında mövcud ictimai-siyasi qurluşun təsirini açıb göstərməklə yanaşı çar hökuməti orqanlarının xalqın sağlamlığına etinasızlığını ifşa edir və göstərirdi ki, bir sıra Avropa ölkələrində traxoma xəstəliyinin yayılmasına o qədər də imkan verilmir. N.Nərimanov Rusiyada bu xəstəliyə qarşı tədbir görülmədiyini göstərərək yazırdı: “Görünür bu payədə bədbəxtliyi, bu əqlə gəlməyən zərəri, cəmiyyətdən, millətdən, dövlətdən uzaq etmək mümkün imiş!”[5].

---

1 Yenə orada.
2 Yenə orada.
3 “Yeni iqbal” qəzeti, 15 yanvar 1916.
4 Yenə orada.
5 Yenə orada.

Xalqın vəziyyətinin belə ağır vaxtında xəstəliyin tüğyan etdiyi şəraitdə N.Nərimanovun bacarığı, təşkilatçılığı böyük əhəmiyyət kəsb edirdi. Onun ətrafına həmkarları, qabaqcıl ziyalılar sıx toplaşmışdılar. Tərəqqipərvər həkimlər əhaliyə tibbi yardımı əsirgəmir, əllərindən gələni edirdilər. Onu da qeyd edək ki, sonralar Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra N.Nərimanov respublika Xalq Komissarları Sovetinin sədri işləyərkən bu xəstəliyin törətdiyi ağırlaşmaları yaddan çıxarmır. 1924-cü ildə “Traxoma” (“Göz ağrısı”) adlı kitabını (doktor Rozanovla birlikdə) nəşr etdirir.

Dövrünün ictimai bəlalarından olan yoluxucu xəstəliklər traxoma ilə bitmirdi. O zaman vərəm, vəba epidemiyaları minlərlə adamı məhv edirdi. Bakı əhalisi arasında xüsusi ilə fəhlə ailələrində vərəm xəstəliyi geniş yayılmışdı. Bakı qəzetləri həkim Nərimanovun, vərəmə qarşı apardığı böyük işlər barədə tez-tez məqalələr verirdilər. Məsələn, “Baku” qəzeti 1914-cü il 21 yanvar nömrəsində N.Nərimanovun “Vərəmin müalicəsi” mövzusunda mühazirəsinin müvəffəqiyyətindən və mühazirə zamanı vərəmə aid rəngli şəkillərin nümayiş etdirilməsindən yazırdı.

Vərəmin yayıldığı bu dövrdə həkimlərin vəzifəsindən danışaraq Nərimanov yazırdı. “...həkimlər çaxotkaya artıq dərəcədə əhəmiyyət verməyə başladılar. Əhəmiyyət veribdə ağır, dəhşətli naxoşluğu yavaş-yavaş azaltdılar və böyük ümid yolu açdılar”[1].

Vərəmə qarşı mübarizədən danışarkən həkim Nərimanov uşaqların və gənclərin daha çox tutulmalarından ürək ağrısı ilə yazırdı: “...iyirmi yaşından iyirmi beş yaşınadək tamam dünyada insanların onda bir hissəsi bu mərəzə mübtəladır”[2].

“Vərəm” əsərində N.Nərimanov mövcud vəziyyəti tibbi baxımdan izah edərək, onun kapitalizm quruluşunun yaratdığı ictimai mühitlə üzvi əlaqəsini göstərmişdir. Bu fikri K.Marks belə izah edir: “Çaxotka və digər ağ ciyər xəstəlikləri kapitalizmin mövcud şəraiti ilə əlaqədardır”[3].

N.Nərimanov ümumiyyətlə xəstələnmə, xüsusən vərəm zamanı qidalanmanın əhəmiyyətinə xüsusi fikir verirdi. O yazırdı ki, təbii qidalanmanın olmaması orqanizmi zəiflədir və üstəlik istirahətsiz üzücü iş xəstəliklərin artmasına şərait yaradırdı.

Həmin əsərdə N.Nərimanov vərəmin meydana çıxmasına və yayılmasına əhəmiyyətli təsir göstərən bir sıra ictimai məsələləri göstərərək yazırdı ki, düzdür, vərəmin törədiciləri mikrobklardır, lakin bu məsəslədə orqanizmin öz halının həll edici əhəmiyyəti

[1] “Yeni iqbal” qəzeti, 29 aprel 1916.
[2] “Yeni iqbal” qəzeti, 3 may 1916.
[3] K.Marks, F.Engels. Əsərləri külliyatı. Bakı 1960. XXIII, s. 493.

vardır: yoxsullarda qidanın çatmamazlığı, mənzil şəraitinin pis olması nəticəsində mikroblar inkişaf edir, yayılır. N.Nərimanov göstərirdi ki, rus xalqı da çar mütləqiyyətinin əsarəti altında olan başqa xalqlar kimi ağır ictimai şəraitdə yaşayır. Öz fikrini sübut etmək üçün müəllif kapitalist Rusiyasından fəhlələrin və yoxsul kəndlilərin vərəmdən ölüm faizinin artığını göstərən statistik məlumatı misal göstərir. O yazırdı: "Rusiyada ildə bir milyona qədər naxoş olur. Bundan 500 mini tələf olur"[1]. Beləliklə, N.Nərimaov yoxsul və varlıların xəstələnməsini və həmin xəstəlikdən ölüm hallarını əyani surətdə tutuşdurur ki, burada da müqayisəedilməz dərəcədə yüksək ölüm faizi yoxsulların payına düşürdü. Bununla da müəllif ictimai quruluşun törətdiyi mənfiliklərin açıb göstərir və zəhmətkeş xalqın gözünü açır, onları istismarsız həyata, sağlam məişətə, mədəni tərəqqiyə, bərabərliyə səsləyirdi.

XIX əsrin sonlarında, XX əsrin əvvəllərində (1873, 1892-1903, 1906-1907, 1916-1919-cu illər) minlərlə insan həyatını belə məhv edən vəba epidemiyaları baş vermişdi.

N.Nərimanov vəba epidemiyasına qarşı praktiki tədbirlərin həyata keçirilməsində fəal iştirak edir, xüsusilə bu təhlükəli xəstəliyin epidemiyalogiyası, klinikası, müalicəsi və aradan qaldırılması tədbirləri haqqında mühazirəklər oxuyur, məqalələr dərc etdirirdi.

Vəba epidemiyasının 1910-cu ildə Həştərxanda tüğyan etdiyi bir dövrdə N.Nərimaov özünün "Vəba" əsərini nəşr etdirir. "Vəba" əsərində müəllif infeksiyanın epidemiologiyası, xəstəliyin gedişi barədə ətraflı məlumat verir, bakteriyal ocaqda prafilaktika və ağır nəticələrin aradan qaldırılması üzrə hansı tədbirlərin görülməsini göstərir. N.Nərimanovun fikrincə, vəba epidemiyası təhlükəsi həmin infeksiyanın sürətlə yayılmasında və inkişaf etməsində deyil onun meydana çıxması, yayılmaması üçün ictimai gigiyena zəmini olmamasında və onunla mübarizənin kifayət qədər effektli və ardıcıl aparılmamasındadır.

N.Nərimanov "Tif" və "Dizenteriya" adlı əsərlərində də ictimai problemlərə toxunur, tez-tez yoluxucu xəstəlik epidemiyaları haqqında və onlara qarşı profilaktik tədbirlər görülməsi barədə geniş auditoriyalarda, cəmiyyətlərdə çıxışlar edir, mühazirələr oxuyurdu. "İqbal" qəzeti öz səhifələrində N.Nərimanovun həkimlik fəaliyyətini yüksək qiymələndirir, oxuduğu mühazirələrin böyük əhəmiyyətini qeyd edərək yazırıdı: "...Möhtərəm doktor Nərimanbəy Nərimanov cənabları həmin darulfunun tərəfindən hər həftə Suraxanski küçəsində 6-cı rus-müsəlman məktəbində türkcə (Azərbaycan dilində -

[1] "İqbal" qəzeti, 26 fevral 1914.

B.Q) leksiya oxuyacaqdır. Hələlik dığ (vərəm – B.Q) xəstəliyin çarə yollarının bilmək istəyən şəxslər həmin leksiyaya gəlib istifadə etmələri lazımdır”[1].

“Açıq söz”, “Sədayi-həqq” və başqa qəzetlərdə Nərimanovun xalq üçün mühazirə oxumasını yüksək qiymətləndirir bu barədə vaxtaşırı məlumat dərc edirdilər.

N.Nərimanovun ana dilində qələmə aldığı tibb əsərləri öz dövrünə görə dəyərli vəsait idi. Epidemiyalar dövründə bu əsərlərdən nə qədər öyrənən, faydalanan olmuşdur. N.Nərimanov yoluxucu xəstəliklərlə mübarizəyə on beş ildən artıq başçılıq etmiş, səhiyyənin təşkilində də böyük xidmətləri olmuşdur.

Bu illərdə N.Nərimanov həkimliklə yanaşı inqilabi fəaliyyətini də davam etdirir, xalqın həyatında mühüm rol oynayan ictimai tədbirlərdə yaxından iştirak edirdi. O, xalq evində idarə heyətinin üzvü, maarif evində sərəmcamçı katib, kooperasiyaların “Qənaət” birliyində sədr vəzifələrində işləmişdir. 1917-ci ildən isə bütünlüklə inqilabi fəaliyyətə başlayır. O, bolşevik “Hümmət” təşkilatının sədri və “Hümmət” qəzetinin redaktoru olur.

Oktyabr silahlı üsyanının qələbəsindən sonra Zaqafqaziyada Sovet hakimiyyətinin ilk səlahiyyətli hökümət orqanı olan Bakı Xalq Komissarları Soveti (BXKS) 1918-ci il aprelin 25-də Fəhlə Bakı Əsgər və Matros Deputatları Sovetinin iclasında təşkil edilmişdi. Bu iclasda N.Nərimaov şəhər təsərrüfatı komissarı təyin edilir.

BXKS qısa müddətdə ən mühüm sosialis tədbirləri həyata keçirmişdi. Hökümətin tərkibinə səhiyyə komissarı əvəzinə tibb-sanitariya komissiyası daxil edilmişdi. Bu dövrdə N.Nərimanov komissiyanın işinə ciddi nəzarət edir və lazımi səhiyyə tədbirləri irəli sürürdü.

Həmin günlərdə Bakı Sovetində, Nargin adasında saxlanan əsirlərin ağır vəziyyətdə, antisanitariya şəraitində yaşadıqları haqqında məsələ qaldırılır. Əsirlər xəstəlikdən, susuzluqdan qırılırdı.

Əsirlərin vəziyyətini yoxlamaq və lazımi tədbirlər görmək üçün komissiya yaradırlar. N.Nərimanov komissiyaya sədr seçilir. Nərimanov altı nəfərlik bir heyətlə Nargin adasına gedir. Yoxlanış nəticəsində aydın olur ki, adada saxlanan əsirlərin vəziyyəti çox acınacaqlıdır. Baraklar yarımxaraba vəziyyətdə idi, əsirlərin çoxu əzab-əziyyətdən üzülüb əldən düşmüşdülər.

Şəhərə qayıdandan sonra N.Nərimaov Bakı Sovetində Nargindəki dəhşətli vəziyyəti danışır, təcili yardım göstərməyi təklif edir. Bakı Soveti əsirlərin vəziyyətini qismən

---

[1] “İqbal” qəzeti, 26 fevral 1914.

yaxşılaşdırmaq üçün Nərimanovun sədrliyi altında yardım komissiyası yaradır. Xəstə əsirləri şəhərə daşıyırlar. Onların müalicəsi üçün lazımi tədbirlər görülür. Bu barədə "Hümmət" qəzetində geniş məlumat verilir.

Bakı Xalq Komissarları əhaliyə tibbi yardımın yaxşılaşdırılması, xəstəxanaların qaydaya salınması, avadanlıqla təchiz olunması ilə əlaqədar bir sıra ciddi tədbirlər həyata keçirmişdi.

Belə gərgin günlərdə özünü təmamilə inqilabi və dövlət işinə həsr edən N.Nərimaovun səhhəti tamamilə pozulmuşdu. "Hümmət" qəzeti 10 iyun 1918-ci il tarixli nömrəsində bu barədə yazırdı ki, "məclis və yığıncaqlarda, füqərayi-kasibənin halına qalıb bunları həmişə ayıq olmağa dəvət edən, yorulmadan iş görməkdə olan möhtərəm yoldaşımız Nərimanbəy Nərimanov neçə gündür ki, azarlamışdır. İndi müalicə üçün Həştərxana göndərilməsi məsləhət görülür. Hazırda xəstəxanadan evə gətirilibdir. Tezliklə Həştərxana göndəriləcəkdir. Ürəkdən rica edirik ki, belə bir əzmkar və fəal xadim şəfa tapıb sağ-salamat qayıtsın."

N.Nərimanov 1918-ci ildə həkimlərin təkidilə müalicə olunmaq üçün Həştərxana yola salınır.

## N.NƏRİMANOV TƏNQİDÇİ KİMİ

N.Nərimaov tibb aləminə nüfuzlu və görkəmli şəxsiyyət kimi daxil olmuşdur. O, təcrübəli klinisist, mahir təşkilatçı və təbliğatçı, geniş nəzəri biliyə malik həkim olduğu üçün bir sıra məsələlərdə onun fikri mötəbər, inandırıcı hesab olunurdu. Bu keyfiyyətlərlə yanaşı kəskin qələmi və cəsarətli sözü N.Nərimanov elmi tənqid sahəsində əsl tənqidçi kimi tanıtmışdı. Onun tənqidi fikirləri dərin, prinsipial olub, şəxsi hissə toxunmayan, xeyirxah, məsləhətçi xarakter daşıyırdı. Bu cəhətdən N.N.ərimanovun həkim Kərimbəy Sultanovun "Hifzul-səhhət" [1] adlı əsərinə yazdığı "Tənqid "Hifzul-səhhət" və P.İ.Baxmetyevin "Məməlilərdə anabiozu necə tapdım" məqaləsinə "Gələcəyə bir nəzər"[2] adlanan tənqidi məqalələri diqqəti cəlb edir.

Həkim Kərimbəy Sultanovun Azərbaycan dilində tərtib edilmiş "Hifzul-səhhət" əsəri 116 səhifədən ibarətdir. Dövrünə görə sanballı, elmi-kütləvi karakter daşıyan bu kitab saniteriya-gigiyena problemlərinə həsr edilmişdir. O zamanlar tibb sahəsində

[1]" Hifzul-səhhət", "Yeni inqilab" qəzeti, 11 yanvar 1916.
[2] "Gələcəyə bir nəzər", "İnqilab" qəzeti, 26 sentyabr 1913.

Azərbaycan dilində belə bir kitab nəşr etdirmək böyük hadisə kimi qiymətləndirilirdi. Odur ki, ictimaiyyət kitab haqqında nüfuzlu rəy gözləyirdi. Bu vəzifəni N.Nərimanov öz öhdəsinə götürərək kitaba ətraflı tənqid yazdı. O, hər şeydən əvvəl kitabın meydana çıxması təşəbbüsünü alqışlayır və müəllifin bu sahədə gələcəkdə də yeni əsərlər yazmasını arzulayırdı:

"Doktor Sultanovun... kitabı tibbin ən əhəmiyyətli bir qismindən – elmi-səhhətdən bəhs edir. Elmi-səhhətin indiki halı və yerişi gələcəkdə doğrudan da müqəddəs ali bir məqsədə çatmağa böyük ümidlər vəd edir".

N.Nərimanov "Hifzul-səhhət" əsərinin yazılmasında başlıca məqsədi və qarşıya qoyulan məsələnin həllini yığcam şəkildə izah edərək yazırdı: "Kitab və məqalə yazan əvvəl gərəkdir oxucularını gözünün qabağına gətirib öz-özünə soruşa, kimdən ötrü yazıram. Oxucular mətləbi düşünməyə hazırdırlarmı?" Tənqidçinin bu fikri nəinki kitabın müəllifi, habelə bütün qələm sahibləri üçün faydalı məsləhət idi.

N.Nərimanov müəlliflik bacarığından bəhs edərək daha sonra yazırdı ki, bir müəllimin öz elmini yaxşı bilməsi onun yaxşı müəllim olmasına hələ dəlalət etmir. Uşaqlar çətin dərslərini asan və tez öyrənərsə, bu cəhət müəllimin doğrudan da yaxşı müəəlim olduğunu göstərir. Deməli, müəllif izah etdiyi problemə yaxşı bələd olmaqdan əlavə onu təsvir etməyi elə bacarmalıdır ki, oxucular onu asanlıqla qavraya bilsin və uzun müddət yadda saxlasın.

N.Nərimanovun nəzərindən kitabın qüsurlu cəhətləri də qaçmamışdı. Bu barədə o, belə yazırdı: "Sultanov uzun-uzadı ümumi azarlar barəsində bəhs edib öylə bir şeyləri meydana gətirir ki, həkim olmayan üçün gərəksiz məlumatdır, desək də, yarar. Məsələn, oxucunun nəyinə lazımdır bilsin: "diaqnostika" nədir, "anamez" nədir... Həkimlər nə fənd ilə mərəzi tapırlar?" Beləliklə o, kitabda məqsədəuyğun olmayan fikirlərin verilməsini müəllifin nöqsanlarından biri hesab edirdi. Tənqidçi kitabın yazılma üslubu barədə də fikrini belə izah edir: "Kitabda asan məsələləri axıra salıb: ən çətin məsələlərdən başlamaq... böyük səhvdir. Əvvəl yavuqdan başlayıb uzağa getmək, yəni asandan başlayıb çətinə getmək lazımdır". Daha sonra N.Nərimaov fikrini əsaslandıraraq belə yazırdı: "Cənab Sultanovun kitabında əsl "Hifzul-səhhət"ə dair məsələlər: toz, su, hava, və qeyrilər axıra düşübdür. Ən çətin, bakteriya məsələsi qabağa keçibdir". Onun fikrincə müəllifin sağlamlıq üçün böyük əhəmiyyəti olan sudan, su mənbələrindən (çay, göl, quyu), havadan, tozdan ətraflı məlumat verməsi oxucu kütləsi üçün daha faydalı olardı.


طب واسلام

عالم نسوان

TRAXOM.

BAQI.

1924.

N.Nərimanovun kitabkarının titul vərəqəsi: “Tibb və İslam” – 1910, “Aləmi - nisvan” – 1911, “Xalera – Vəba” – 1910 və “Traxoma” – 1924.

N.Nərimanov suya xüsusi əhəmiyyət verərək yazırdı: “Su kimi böyük bir məsələ barəsində bəhs açıb quyu, çay suları barədə müfəssəl söyləməmək olmaz... Bakı camaatı, xüsusən müsəlmanlar bu vaxtadək içdikləri suyun nə olmağını bilsəydilər və onun zərərini düşünsəydilər... Bir yerdı həm su quyusu və həm də rahatxana olub da, bunların bir-birinə yer altından yol olmağı, əhəmiyyətsizmi məsələdir?”.



Его Превосходительству
Господину Ректору Императорскаго
Новороссійскаго университета

Студента III курса
Медицинскаго факуль-
тета Н. Нариманова

Прошеніе.

Имѣю честь покорнѣйше
просить распоряженія Вашего Пре-
восходительства о выдачѣ мнѣ удосто-
вѣренія в томъ, что я состою студен-
томъ III курса медицинскаго факультета
для представленія в Бакинскую
городскую управу для получения стипендии
Студентъ Н. Наримановъ

1904 г. 9 сентября
Одесса

Удостовѣреніе за № 3998 получилъ
Студ. Н. Наримановъ

N.Nərimanovun Novorossiysk universitetinin rektoruna yazdığı ərizə.



N.Nərimanovun istifadə etdiyi cərrahi alətlər.

N.Nərimanov havadan, tozdan, işıqdan bəsh ederkən "toz və hava barəsində yazıb da və məktəb məsələlərinə ciddi surətdə girişməmək böyük xəyanətdir" – deyə gənc nəslə olan diqqət və qayğıkeşliyini bildirirdi. O, kitabın dilinə xüsusi diqqət yetirir və bu barədə belə yazırdı: "Dil məsələsinə gəldikdə doğrduan-doğruya cənab Sultanov bir hünər göstəribdir ki, kitab sadə, açıq türk (Azərbaycan – B.Q.) dilində yazılıbdır". Bu müsbət cəhətlə yanaşı N.Nərimanov müəllifin yol verdiyi qrammatik qüsurları da göstərir: "Fəqət cənab Sultanov türk dilinin ədəbiyyatına, sərf və nəhvinə bələd olsaydı, yaxşı olardı".

N.Nərimanov dövrünün tələbini nəzərə alaraq tibbə dair kitab yazanlara belə məsləhət görürdü: "Hal-hazırda tibb elminin belə ağır şöbəsinə girişməkdənsə, bu şöbəyə dair ayrıca-ayrıca məsələlər barəsində balaca kitabçalar yazmaq daha gözəl olardı". Onun fikrincə kiçik həcmli kitablar əhali arasında tez yayılmaqla hər oxucunun mütaliəsinə daha geniş imkan yaradır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, N.Nərimanov da xalq arasında geniş şöhrət tapmış tibbə dair əsərlərini kiçik həcmdə yazmışdır.

N.Nərimanov özünə xas olan səmimiyyətlə, tənqid etdiyi müəllifə hörmətlə yanaşır, onu ruhlandıraraq yazırdı: "Biz səmimi-qəlbdən yoldaşımızın böylə bir müqəddəs yola ayaq qoymasını təbrik edirik. Ümidvaram ki, Kərimbəy Sultanov alim bir adam olub da, göstərdiyimiz səhvlərdən qorxmaz və daha artıq ciddi-cəhd edərək bildiyi məlumatları müsəlmanlar arasında intişar edər. Doğrudan da oxumuş diplomlu müsəlmanlarımızın arasında Kərimbəy Sultanov öz kitabları ilə şəfəqlənir. Böylə qiymətli cavanlarımızın artması millətimizin xoşbəxtliyidir".

N.Nərimanov təbiiyyat elmlərinin yeniliklərini daim izləyir, bu sahədə mütərəqqi fikirləri müdafiə edər və onların yayılmasına çalışardı. "Gələcəyə bir nəzər" məqaləsi bu baxımdan maraqlıdır.

Məşhur rus fiziki və bioloqu P.İ.Baxmetyevin "Məməlilərdə anabiozu necə tapdım"[1] məqaləsi nəşr olunduqdan sonra bu barədə geniş mübahisələr başlanmışdı. Məqalənin nəşrinədək soyuqqanlı heyvanlarda anabioz (canlanma, dirçəlmə) məsələsi aydınlaşdırılmamışdı. N.Nərimanov Baxmetyevin bu barədə mühazirəsini eşitdiyini etiraf edərək yazır: "Biz cənab Baxmetyevin bu barədə leksiyasını eşidib bir neçə məlumat vermək istəyirik"[2]. Burada söhbət balıqlar, böcəklər üzərində aparılan təcrebələrdən gedir. Nərimanov bu təcrübələrin kənd təsərüffatı üçün böyük əhəmiyyətindən bəhs edir. Xarici

[1] "İqbal" qəzeti, 26 sentyabr 1913.
[2] Yenə orada.

mühitlə orqanizmin qarşılıqlı əlaqəsi uzun müddət əsas problem olaraq alimlərin fikrini özünə cəlb etmişdi. Bu cəhətdən Baxmetyevin yeni kəşfi nəzəri və praktiki əhəmiyyətinə görə vacib bir məsələnin həllinə - mühitlə soyuqqanlı orqanizmin qarşılıqlı münasibətini dərindən öyrənmək məsələsinə həsr edilmişdir. Həmin məsələnin həlli tibb-biologiya elmi sahəsində yeni yollar açırdı.

P.İ.Baxmetyevin məməliləri dondurub yenidən cana gətirməsi təcrübəsi biologiya elmində ilk kəşf idi. N.Nərimanov bu kəşfi yüksək qiymətləndirərək yazırdı: "Həqiqət, canlı heyvanları bu cür dondurmaq mümkün olarsa, gələcəkdə insanın və heyvanın həyatında böyük inqilab görünər..."[1].

Baxmetyevin kəşfinə bədbinliklə yanaşanlara və ya ona inanmayanlara cavab olaraq Nərimanov yazırdı: "Əcəba, həqiqət, elm bu dərəcəyə çatarsa, istiqbalımızda daha nələr gözləməli? Çox az müddətdə bundan müqəddəm telsiz teleqraf eşidib inanmadığımız kimi bu yeni meydana gələn məsələ də bizi şəkləndirir, deyilmi? Fəqət gözləri görən, qulaqları eşidən, ağılları paslanmayanlar yuxarıda söylədiyimiz sözlərə şəkk gətirməyəcəklər"[2].

N.Nərimanov anabioz prossesinin gələcəkdə insanların xeyrinə istifadə edilə biləcəyini, bəzi xəstəliklərlə və xəstəlik törədicilərlə mübarizədə tətbiq ediləcəyinə şübhə etmirdi. O, insan zəkasının daha yeni-yeni kəşflər açacağına inanaraq yazırdı: "Bu əqil ciddi surətdə elə bir iş edir ki, hazırda "filan şey ola bilməz" sözlərini demək olmur"[3].

Biologiya elminin mürəkkəb və yeni məsələsinə rəy verən, inkişafı və gələcəyi görən N.Nərimanovun nə qədər haqlı olduğunu, anabiozun bugünkü əhəmiyyətindən, elmdə tutduğu mövqedən daha aydın görmək olur. İndi süni surətdə anbioz yaratmaq mümkündür və ondan əməli işlərdə (canlı quru vaksinlər hazırlanmasında, kən təsərrüfatı heyvanları spermasının konservləşdirilməsində, mikroorqanizm ştammlarının uzun müddət saxlanmasında, cərrahlıqda və s.) istifadə olunur.

Hazırda operasiya edilən orqanizmin soyudulması (hipotermiya) vasitəsilə təbabətdə (ürək, ciyər və beyində) bir sıra əməliyyatların aparılması Nərimanovun öz vaxtı ilə gələcəyə olan inamını bir daha doğruldur.

Elmin ayrı-ayrı sahələrində tənqidi fikir söyləmək və onun üçün məsuliyyət daşımaq tənqidçidən geniş bilik, cəsarətli söz demək və davranış bacarığı tələb edir. Bu tələbata

[1] Yenə orada.
[2] Yenə orada.
[3] "İqbal" qəzeti, 26 sentyabr 1913.

N.Nərimanovun yazdığı tənqidi məqalələr tamamilə cavab verir və onun mahir taənqidçi olduğunu bir daha sübut edir.

## N.NƏRİMANOVUN İNQİLABÇI-HƏKİM SİLAHDAŞLA VƏ AZƏRBAYCANDA SƏHİYYƏNİN TƏŞKİLİNDƏ ONLARIN ROLU

Çar hakimiyyəti illərində Azərbaycanda xalq səhiyyəsi yox dərəcəsində idi. Ağır məişət şəraiti, savadsızlıq, sanitariya-profilaktika tədbirlərinin olmaması, ilk yardımın yoxluğu və digər səbəblər üzündən epidemiyalar bir-birinin ardınca baş verir, minlərlə adamı həyatdan aparırdı.

N.Nərimanov epidemiyaların qabağını almaq, onların yayılıb fəlakətlər törətməsinə yol verməmək üçün profilaktik tədbirlərə böyük əhəmiyyət verirdi. Onun xalq kütləsini sanitariya maarifinə cəlb etməsi xüsusilə diqqətəlayiqdir. Bu böyük siyasi-ictimai fəaliyyətində Nərimanov tək deyildi. Bakıda ictimai-siyasi həyatda gedən kəskin çarpışmalar dövründə N.Nərimanov öz həmkarları ilə birlikdə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, tibb-səhiyyə işlərinin yüksəlməsi uğrunda çalışırdı. İnqilabçı həkimlərdən S.M.Əfəndiyev, Q.M.Musabəyov, M.N.İsrafilbəyov (Qədirli), T.A.Şahbazi (Simurf), A.A.Kazımov onun həmkarlarından idi.

**S.M.Əfəndiyev (1887–1938)** 1904-cü ildə bolşevik partiyasına daxil olur. Gənc yaşlarından inqilabi mübarizəyə qoşulur. O, “Hümmət” qəzetinin nəşrində həm müxbir, həm də çapçı kimi iştirak edir. İyirmi yaşında inqilabi fəaliyyətinə görə həbs edilib Bayıl qalasına salınır. 1907-ildə isə Kazan şəhərinə sürgün edilir. Sürgündə olarkən Kazan universitetinin tibb fakultəsinə daxil olur və 1915-ci ildə oranı bitirir və həkim işləyir.

1917-ci il fevral inqilabından sonra Bakıya qayıdan S.M.Əfəndiyev Bakı bolşevik komitəsinin bürosuna seçilir, yenə də inqilabi fəaliyyətini davam etdirməklə yanaşı həkimlik edir. Şənbə günləri müalicəxanada xəstələri pulsuz qəbul edir. Xalq içərisində diqqətli və qayğıkeş həkim kimi tanınır.

1918-ci ilin yazında S.M.Əfəndiyev vərəm xəstəliyinə tutulduğu üçün Samaraya (indiki Kuybışev) müalicəyə göndərilir. Lakin bir qədər sonra Vətəndaş müharibəsi başladığı üçün Həştərxana gəlir, Qızıl Ordunun “Jeleznı” polkunda siyasi işçi kimi işləyir

və eyni zamanda orduda həkimlik edir. O, Həştərxanda olarkən N.Nərimanovun bir sıra tapşırıqlarını yerinə yetirir, epidemiya əleyhinə onunla birlikdə böyük iş aparır. Həştərxanda müsəlman kommunist təşkilatının orqanı olan "Hümmət" qəzetində N.Nərimanovla əməkdaşlıq edir, qəzetin redaksiya heyətinin tərkibinə seçilir.

1919-cu ilin əvvəllərində S.M.Əfəndiyev Moskvaya çağrılır və Xalq Komissarlığında Zaqafqaziya müsəlmanları komissarı təyin olunur. Eyni zamanda Sovetlər Evində və uşaq evində həkimlik edir. 1920-ci ilin əvvəllərində Moskvadan Krım cəbhəsinə göndərilir, burada siyasi işçi vəzifəsini yerinə yetirir, baş vermiş epidemiyalarla fövqəladə mübarizə komissiyasının sədri təyin olunur. Həmin ilin mayında Bakıya gələrək məsul partiya və dövlət işlərində çalışır, respublika İnqilab Komitəsinin üzvü seçilir. 1931-ci ildən ömrünün sonuna qədər S.M.Əfəndiyev Azərbaycan SSR İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyir.

**Q.M.Musabəyov (1888–1938)** 1918-ci ildə bolşevik partiyası sıralarına daxil olur. 1917-ci ildə Kiyev universitetinin tibb fakultəsini bitirir. O, hələ tələbə ikən inqilabi hərəkatlarda fəal iştirak edir. Təhsilini bitirdikdən sonra Azərbaycana qayıdır, Qubada həkimlik edir, ictimai-siyasi fəaliyyətini burada davam etdirir. 1917-ci il fevral inqilabından sonra Bakıya gələrək ərzaq komitəsinin sədr müavini, 1918-ci ilin mayından isə Bakı quberniyasının və Dağıstanın ərzaq komissarı vəzifəsində çalışır.

Q.M.Musabəyov 1918-ci ildə Həştərxana gedərək N.Nərimanovun təşəbbüsü ilə təşkil olunmuş hərbi xəstəxananın baş həkimi vəzifəsində işləyir. O, həmçinin Həştərxan komitəsinin sədri kimi yerli xalqlar arasında böyük siyasi-ictimai iş aparır. N.Nərimanovun yaxın köməkçilərindən biri olur.

1920-ci ildə Q.M.Musabəyov Azərbaycan İnqilab Komitəsinin tərkibinə daxil olur, bir sıra məsul vəzifələrdə çalışır. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında, əhaliyə tibbi yardımın təşkilində, tibb elminin inkişafında onun böyük xidmətləri olmuşdur.

**M.N.Qədirli (İsrafilbəyov) (1892–1941)** Kommunist partiyasının görkəmli xadimlərindən biridir. O, 1911-ci ildən bolşevik partiyasının üzvü olur. Kiyev universitetinin tibb fakultəsində təhsil almış, təhsilini bitirdikdən sonra həkimlik diplomu ilə Bakıya qayıdır. Hələ gənc yaşlarından inqilabi hərəkata qoşulmuş Qədirli, Bakıda inqilabi işi davam etdirir, "Hümmət" bolşevik təşkilatının fəal üzvlərindən olur.

M.N.Qədirli 1918-ci ildə Moskvadan xüsusi tapşırıqla Həştərxana göndərilir. 1919-cu ildə ağqvardiyaçıların qiyamı dövründə sanitar dəstələri düzəldərək Qızıl Ordu yaralılarına yardım edir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1921–1935-ci illərdə Azərbaycan SSR Səhiyyə naziri vəzifəsində çalışmış, N.Nərimanovun bilavasitə göstərişləri ilə çarizmdən miras qalmış yoluxucu xəstəliklərlə (vəba, taun, təbii çiçək) mübarizənin təşkilatçılarından biri olmuş və bu sahədə müvəffəqiyyətlər əldə etmişdir. Qədirli Azərbaycan MİK nəzdində yaranmış malyariya komitəsinin sədri olduğu illərdə bu fəlakətli xəstəliyin qarşısını almaq üçün böyük fədakarlıq göstərmişdir. Professor Qədirli ömrünün sonuna kimi tibb sahəsində elmi axtarışlarını davam etdirmiş, tibbi kadrların hazırlanmasında mühüm rolu olmuşdur.

**T.A.Şahbazi (1892-1937)** bolşevik partiyası sıralarına 1915-ci ildə daxil olur. 1918-ci ildə Xarkov Universitetinin tibb fakultəsini bitirib Qızıl Orduda hərbi həkim vəzifəsində işləyir. İnqilabi hərəkatda gənc yaşlarından iştirak edir.

1920-ci ildə Bakıya gələrək bir sıra məsul vəzifələrdə çalışır, cəhiyyə və maarif işlərinin canlanmasında, milli kadrların hazırlanmasında xüsusi rolu olmuşdur. Səhiyyə komissarının müavini, Bakı Səhiyyə şöbəsinin müdiri vəzifələrində çalışarkən mühüm təşkilati işlər görmüşdür.

**A.A.Kazımov (1892-1937)** Kiyev universitetinin tibb fakultəsini bititrmişdir. 1917-ci ildən Qızıl Ordu sıralarında, ön cəbhələrdə hərbi həkim işləmişdir. 1918-ci ildə Bakıya qayıdır, bolşevik partiyasının sıralarına daxil olur. Bakıda həkimlik edir, xəstəxana təşkil edilməsi işində fəal iştirak edir.

A.A.Kazımov Azərbaycan Səhiyyə komissarının müavini, sonra isə səhiyyə komissarı təyin edilir. 1922-ci ildən respublika Qırmızı Aypara Cəmiyyətinin ilk sədri vəzifəsini daşıyır. On beş il, yəni ömrünün sonuna qədər bu vəzifədə çalışır. Əhali arasında tibbi biliklərin yayılmasının fəal təşkilatçısı olur.

Xalqımızın bu fədəkar oğulları bütün həyatlarını inqilab işinə, əhalinin sağlamlığı və səadəti işinə həsr etmişlər. Tibb elminin inkişaf etdirilməsində bu inqilabçı həkimlərin fədakar əməyi, böyük xidməti olmuşdur.

## N.NƏRİMANOV – GÖRKƏMLİ SƏHİYYƏ TƏŞKİLATÇISI KİMİ (1918 – 1925-ci illər)

1918-ci il iyulun 11-də V.İ.Lenin RSFSR Xalq Səhiyyə Komissarlığının yaradılması haqqında dekret imzaladı. Yeni təşkil olunacaq səhiyyə orqanlarının sosialist prinsipləri əsasında qurulması əhaliyə tibbi yardımın kökündən dəyişdirilməsini, təkmilləşdirilməsini, ümumxalq sağlamlıq tədbirlərinə çevrilməsini tələb edirdi.

O dövrdə başqa yerlərdə olduğu kimi Həştərxanda da istər əhali arasında, istərsə də hərbi hissələrdə bir sıra epidemik xəstəliklər, xüsusən səpgili yatalaq sürətlə yayılır, minlərlə döyüşçünü sıradan çıxarır, işçiləri istehsalatdan ayırır, inqilab işinə maneçilik törədirdi. 1918-ci ilin sentyabrında N.Nərimanovun səhhəti bir qədər yaxşılaşır. Onun böyük təcrübəsi və təşkilatçılıq bacarığı ilə əlaqədar olaraq Həştərxan vilayətinin müsəlman işləri üzrə Hərbi Siyasi Komissarlığının səhiyyə şöbəsinə rəhbərlik etmək tapşırılır.

1918-ci il oktyabrın 1-dən N.Nərimanov Sovet Həştərxanında xalq komissarlığının tərkibinə daxil olur və Həştərxan quberniya maarif şöbəsinə rəhbərlik etməyə başlayır[1]. N.Nərimanov Həştərxanda zəhmətkeş kütlələrin maariflənməsi, mədəni səviyyəsinin yüksəlməsi, yeni tipli məktəblər yaradılması, bu məktəblər üçün müəllim kadrları hazırlanması və səhiyyə işlərinə rəhbərlik edir.

N.Nərimanov Həştərxanda epidemik xəstəliklərin yayılmasına qarşı ümumxalq mübarizəsini təşkil etməyə, sanitariya maarifini geniş yaymağa, əhali arasında gigiyena vəziyyətini yaxşılaşdırmağa imkan yaradan bir sıra tədbirlərin həyata keçirilməsinə çalışır. Bu məqsədlə əhali arasında mühazirələr təşkil edir, ordu sıralarında hər axşam 4-dən 6-dək söhbətlər aparırdı. O bütün tibb ictimaiyyətini ümumxalq işinə səfərbər edir, özü də bu əməli tədbirlərin bilavasitə iştirakçısı olurdu.

Bakı Kommunasının məğlubiyyətindən sonra Həştərxana gəlmiş inqilabçı həkimlər S.M.Əfəndiyev, Q.Musabəyov, M.İsrafilbəyov (Qədirli) tibb-səhiyyə işlərində Nərimanovun yaxın köməkçisi olurlar.

N.Nərimanovun rəhbərliyi ilə 1918-ci ildə Həştərxanda hərbi xəstəxana açılır. İnqilabçı həkim Q.Musabəyov xəstəxananın baş həkimi təyin edilir.

---

[1] Bax: N.Nərimanov. Məqalələr və nitqlər. B., 1971, s. 254.

N.Nərimanov ordu hissələrində tibb məntəqələri və səyyar xəstəxanalar açdırır, tibbi yardım göstərmək üçün 2 aylıq şəfqət bacıları kursu təşkil edir. Bu kurslarda özü və həkim silahdaşları dərs deyirlər.

N.Nərimanovun Həştərxandakı fəaliyyəti təkcə XI Qızıl ordunun hissələrində tibb səhiyyə işlərini idarə etməklə bitmir. 1918-ci il oktyabrın 1-dən Sovet Həştərxanında xalq komissariatı tərkibinə daxil olur və Həştərxan quberniya maarif şöbəsinə rəhbərlik etməyə başlayır[1]. O yeni tipli məktəblərin yaranmasına çalışır və maarifpərvərləri bu işə cəlb edir.

Həştərxanda fəaliyyət göstərən azərbaycanlı bolşeviklərin təklifi ilə 1919-cu il yanvarın 4-də Həştərxan quberniya İcraiyyə komitəsi yanında Zaqafqaziya müsəlmanları işləri üzrə komissarlıq yaradılır[2]. N.Nərimanovun və D.Bünyadzadənin başçılıq etdikləri bu komissarlıq Azərbaycandakı hadisələri izləyir. "Hümmət" qəzetinin nəşrini təşkil edir, az miqdarda da olsa məqalə və kitabçalar nəşr etdirib Azərbaycana göndərirdi.

N.Nərimanovun Həştərxandakı fəaliyyət dövrü xalqın azadlığı, səadəti və işıqlı gələcəyi uğrunda aydın məqsədlə dolu mübarizə illəri olmuşdur. Nərimanov bu illərdə Həştərxanda görkəmli həkim, dövlət xadimi kimi məşhurlaşmışdı.

Sonralar N.Nərimanov partiyanın tapşırığı ilə Moskvaya dəvət olunur. Burada o, RSFSR Xalq Xarici İşlər Komissarlığı yanında Yaxın Şərq müsəlmanları şöbəsinin müdiri, bir neçə aydan sonra isə RSFSR Xalq Xarici İşlər Komissarının müavini vəzifələrində çalışır. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qələbə çaldıqdan sonra N.Nərimanov V.İ.Leninin məsləhəti ilə Azərbaycan İnqilab Komitəsinin sədri təyin olunur.

1920-ci ildə Azərbaycanda səhiyyə çox pis vəziyyətdə idi. Həkimlərin, tibb məntəqələrinin sayı çox az idi. Az miqdarda olan xəstəxanaların da əhaliyə xidməti zəif idi. Xalqın sağlamlığını qorumaq üçün vur-tut 500 həkim var idi. Respublikada əhalinin hər 10 min nəfərinə 2 həkim, habelə 10 çarpayı düşürdü. Belə vəziyyətdə yoluxucu xəstəliklər geniş yayılmışdı. Bunun qarşısını almaq, adamların sağlamlığını mühafizə etmək üçün respublika hökümətinin qarşısında təxirəsalınmaz vəzifələr dururdu.

Lenin səhiyyə prinsipləri Azərbaycanda N.Nərimanovun başçılığı ilə elə ilk günlərdən həyata keçirilməyə başlandı. Azərbaycan hökümətinin tərkibində olan səhiyyə komissarlığı 1920-ci il aprelin 29-dan fəaliyyətə başladı. Həmin il mayın 4-də N.Nərimanovun imzası ilə verilən Dekretə əsasən bütün müalicə ocaqları milliləşdirildi[3].

---

[1] Yenə orada.
[2] Bax: T.Əhmədov. N.Nərimanov. s. 260.
[3] Bax: N.Paşayev, Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti, Bakı, Azərnəşr, 1987, s. 98.

Tibb müəssisələrinin və aptek sisteminin milliləşdirilməsi dövründə köhnə sahibkarların göstərdiyi müqavimətlər bir sıra çətinliklərə səbəb olurdu. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov bu tədbirləri xüsusi nəzarət altına alır, həyata keçirilməsinə gündəlik yardım göstərirdi.

1920-ci ildə Bakıda akuşer-ginekoloji və əsəb-ruhi xəstəliklər klinikaları, bir qədər sonra uşaq xəstəlikləri və dəri-zöhrəvi xəstəliklər klinikaları açılır. Bu dövrdə Bakı universitetinin tibb fakultəsinin daxili xəstəliklər və cərrahiyyə klinikaları da fəaliyyət göstərirdi.

Azərbaycanda ali tibb təhsilinin təşəkkülü və inkişafı inqilabın qələbəsi ilə qırılmaz surətdə bağlıdır. Yeni səhiyyə sistemi təbiidir ki, başlıca problemin həll edilməsini, həkim kadrları hazırlanmasını tələb edirdi.

İnqilabdan əvvəlki dövrdə Azərbaycanın mütərəqqi adamları universitet açılması uğrunda ciddi mübarizə aparırdılar. Onun açılmasını təkidlə tələb edən görkəmli inqilabçılar Ə.Qarayev, S.Ağamalıoğlu, D.Bünyadzadə və başqaları idi. Kəskin mübarizədən sonra 1919-cu ildə universitetin açılması haqqında qərar qəbul olundu. Tibb və tarix-filologiya fakultələri yaradıldı. Tibb fakultəsinin dekanı İ.Şirokoqorov seçildi. Lakin universitetin büdcəsi az və müəllim heyəti çox zəif idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra universitetin maddi-texniki bazasının möhkəmləndirilməsinə, professor-müəllim heyətinin tərkibinin yaxşılaşdırılmasına, tələbə qəbulu zamanı azərbaycanlılara üstünlük verilməsinə böyük əhəmiyyət verildi.

N.Nərimanovun sədrliyi ilə Azərbaycan İnqilab Komitəsinin 1920-ci il oktyabrın 31-də qəbul etdiyi qərarında deyilirdi ki, Azərbaycan Dövlət Universitetinə 1920-21-ci dərs ilində qəbul edilməsi nəzərdə tutulan 1430 nəfərin 500 nəfəri tibb fakultəsi üçün müəyyənləşdirilsin.

Azərbaycan Dövlət Universitetinin tibb fakultəsi ixtisaslı həkim kadrlarının hazırlanmasında mühüm rol oynadı. Rus alimlərindən V.Razumovskinin, İ.Şirokoqorovun, A.Levinin, S.Uşinskinin, S.Davidenkovun və başqalarının böyük xidmətləri olmuşdur.

N.Nərimanov tibb fakultəsinin klinik bazalarını möhkəmləndirmək və tədris prosesinə təcili kömək etmək məqsədilə 1921-ci ilin dekabr ayında özü klinikanın vəziyyətilə yaxından tanış olur. O, universitetin rektoru S.Davidenkov, prof. A.A.Oşman

və tələbə nümayəndələrin müşayiəti ilə terapevtik, əsəb xəstəlikləri, cərrahiyyə və digər şöbələri gəzir, xəstələrlə söhbət edir, ehtiyacları barədə soruşur, özündə qeydlər edir.

1920-ci ildə Bakıda orta tibb kadrları hazırlamaq üçün üç il tədris müddəti olan ilk feldşerlik məktəbi təşkil edilir.

Hazırda N.Nərimanovun adını daşıyan Azərbaycan Dövlət Tibb İnstitutu həkim kadrları hazırlamaqla yanaşı, respublikada böyük elm mərkəzidir.

Həmin ildə Bakı şəhər səhiyyə şöbəsi yaradılır. Şəhərin səhiyyə və tibb işləri bu təşkilata tapşırılır. Yerlərdə qəza inqilab komitələrinin nəzdində başqa şöbələrlə yanaşı səhiyyə şöbələri təşkil edilir. Keçmişin mirası olan yoluxucu xəstəliklərin, epidemiyaların hökm sürdüyü bir zamanda səhiyyə şöbələrində təcili dövlət tədbirləri görülür.

Sovet hökümətinə rəğbət bəsləyən həkimlər D.İ.Ləmbəranski, M.Vəkilov, B.Qaibov, M.Şərifov, M.B.Sultanov, M.E.Mirqasımov, Ə.F.Qarayev, Ə.Əlibəyov, S.A.Seyidov, T.B.Mehmandarov və başqaları İnqilab Komitəsinin çağırışına qoşularaq əhaliyə tibbi yardım göstərirlər.

Həkim çatmamazlığı, xüsusən kənd yerlərində xəstəliklərlə mübarizəyə və sanitariya maarifinin yayılmasına maneçilik törədirdi. Qəzalarda, xüsusən İran sərhədlərində və b., çiçək, taun kimi çox təhlükəli xəstəliklər yayılırdı. Bu xəstəliklərlə mübarizə üçün Azərbaycan hököməti daimi fövqəladə komissiya təşkil etdi. Komissitanın sədri səhiyyə naziri inqilabçı həkim M.Qədirli təyin olundu. Bu komissiyaya prof İ.Şirokoqorov, həkimlərdə A.Kazımov və Ə.Əlibəyov daxil idilər. Komissiyaya epidemiya ilə mübarizədə bir sıra tədbirlərin həyata keçirilməsinə, xəstəliklərin baş verdiyi ocaqların məhdudlaşdırılmasına və ləğv edilməsinə nail oldu.

Xalqın "bizim doktor" adlandırdığı N.Nərimanov Şərqdə xalqlar dostluğunun möhkəmlənməsi, Zaqafqaziya xalqlarının qardaşlıq əlaqələrinin inkişafı uğrunda yorulmadan mübarizə aparmışdır. 1922-ci il martın 12-də Azərbaycan, Gürcüstan və Ermənistan MİK-ləri nümayəndələrinin Səlahiyyətli konfransında seçilmiş Zaqafqaziya Federasiyası İttifaq Sovetinin sədrlərindən biri olmuşdur.

N.Nərimanov SSRİ-nin 1-ci Sovetlər qurultayında yaradılmış MİK-in ilk sessiyasında ZSFSR-dən SSRİ MİK sədri seçilmişdir. O, ən mühüm dekret, qərar və müraciətnamələrin hazırlanmasında, xarici siyasət tədbirlərində, onların həyata keçirilməsində fəal çalışmışdır.

Bu illərdə N.Nərimanov doğma Azərbaycanı yaddan çıxarmır, respublikanın vəziyyəti ilə daim maraqlanırdı.

Nərimanov Siyasi Büronun onun xahişi ilə Azərbaycanın məktəb və xəstəxanalarına sərf olunmaq üçün ayrılmış vəsaitin çox vacib olduğu barədə respublika Xalq Komissarları Sovetinin sədri Q.Musabəyova belə yazmışdı: "Martın 20-də Siyasi Büro Azərbaycanın nəfinə pay ayırmaları məsələsinə bir daha baxdı. Ölkənin iqtisadi vəziyyəti ağır olduğuna görə məsələ çox kəskin qoyulmuşdu. Bununla belə, Siyasi Büro xahişimi yerinə yetirdi...

Mən hələ Lenin yoldaşın vaxtında bu məsələni ilk dəfə irəli sürəndə Azərbaycanın mədəni cəhətdən geri qaldığını (təqribən 3-4 faiz savadlı var) və üstəlik Azərbaycanın aran rayonlarında iqlim şəraitinin dəhşətli olduğunu (malyariya) açıq göstərmişdim. Buradan Siz mənim nə məqsədlər güddüyümü görürsünüz. Yenə də həmin mülahizələr məni indi Siyasi Büro qarşısında danışmağa vadar etdi...

Əlbətdə, Sizə göstəriş verməyə ixtiyarım yoxdur, buna görə də Azərbaycanın vətəndaşı kimi şəxsi məktub şəklində yazıram... Deyəsən fikrim aydındır – neftin müqabilində alınan vəsait son dərəcə qənaətlə maarif və səhiyyə işlərinə sərf edilməlidir. Azərbaycanın vəziyyətinə bələd olan bir şəxs başqa cür fikirləşə bilməz[1].

Ömrünün xalqının səadəti, sağlamlığı, xoşbəxt gələcəyi uğrunda çıraq kimi yandıran Nərimanovun adı xatirələrdən uzun illər silinməyəcək, unudulmayacaqdır.

---

[1] İ.Dubinski-Muxadze. Narimanov. s. 242-243